
Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 50 (24.485)
24 dekabr 2025-ci il, çərşənbə

Xüsusi buraxılış
www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Mən hər bir azərbaycanlının Prezidenti olacağam

Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycanın gələcək taleyində əvəzsiz rolu, milləti və dövləti qarşısında müstəsna xidmətləri olan cənab İlham Əliyev kimi böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur. Ümummilli Lider Heydər Əliyevin qurduğu dövlətin taleyini tapşıracağı yeni liderin seçilməsində nümayiş etdirdiyi özünəməxsus müdrikliyin miqyası illər keçdikcə daha aydın görünür, seçimin uğuru təkzibolunmaz şəkildə öz təsdiqini tapır. Onun 2003-cü ilin prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd İlham Əliyev haqqında dediyi ***"Mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o, başa çatdıracaqdır"*** sözləri Ümummilli Liderin uzaqgörənliyinin və seçiminin alternativsizliyinin bariz nümunəsi sayıla bilər. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyevin keçdiyi həyat yolu, ictimai-siyasi proseslərdə fəal iştirakı, idarəetmədə qazandığı təcrübə, intellektual səviyyəsi və müasir dövrün siyasi xadimləri üçün xarakterik olan bütün yüksək keyfiyyətləri mənimsəməsi 2003-cü il oktyabrın 15-də Azərbaycanda keçirilən prezident seçkilərində onun şəksiz qələbəsini təmin etdi. Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən ***"Mən hər bir azərbaycanlının Prezidenti olacağam"***, – deyən cənab İlham Əliyev cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilmişdir. Ötən illərin reallıqları zamanın dahisi Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir.



Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müdrik siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti, polad iradəsi, yorulmaz fəaliyyəti və xalqla iqtidar arasında olan sıx birliyin sayəsində planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə, həmçinin müharibədən yeni çıxmış ölkə olmağımıza rəğmən respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə, dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız durmadan çiçəklənir.

Azərbaycan dövləti, Azərbaycan xalqı İlham Əliyev cənablarının rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilir. Ötən illər aşkar şəkildə göstərdi ki, cənab İlham Əliyev öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu Öndərimizin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf, demokratik, hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir.

## Yeni mərhələ

Prezident İlham Əliyev 2018-ci il aprelin 18-də andiçmə mərasimində islahatların yeni dalğasını anons etmiş, ölkənin ictimai-siyasi, mədəni həyatının hər bir sahəsini əhatə edən çoxşaxəli islahatların yeni mərhələsi başlanmışdır. Dövlətimizin başçısı islahatlar modelini yığcam olaraq belə ifadə etmişdir: ***"Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik".***

Bu gün hakimiyyətin bütün qollarında – qanunverici, icraedici və məhkəmə hakimiyyətlərində islahatlar gedir, prosesi asanlaşdırmaq məqsədilə yeni hüquqi aktlar qəbul edilir, heç bir dövlət orqanı yenilənmə, islahat kursundan kənarda qalmır.

2020-ci ildə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqədar müstəqillik tariximizdə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar 52 siyasi partiyadan 50-si, həmin il oktyabrın 10-da Fransanın Qarabağ münaqişəsi ilə bağlı tutduğu ədalətsiz mövqeyə dair 50 siyasi partiya, oktyabrın 12-də Ermənistanın yeni hərbi təcavüzü, dinc sakinləri, uşaqları, mülki obyektləri, beynəlxalq nəqliyyat-kommunikasiya və tranzit xətlərini hədəfə alması haqqında 50 siyasi partiya sədri daxil olmaqla, 140 tanınmış ziyalı, ictimai-siyasi fəal, etnik azlıqların nümayəndələri beynəlxalq və regional təşkilatlara birgə bəyanat və müraciətlər ünvanlamışlar. Bəyanat və müraciətlərdə siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları Müzəffər Ali Baş Komandanın Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi-hərbi tədbirləri yekdilliklə dəstəklədiklərini və onun yanında olduqlarını bildirmiş, beynəlxalq təşkilatların, ATƏT-in Minsk qrupu həmsədrlərinin ikili standartlardan çıxış etməsi tənqid olunmuşdur.

Səhifə ⇨ 2

# Mən hər bir azərbaycanlının Prezidenti olacağam

(əvvəli 1-ci səhifədə)

2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad olunması münasibətilə 50 siyasi partiya Prezident, Müzəffər Ali Baş Komandanı təbrik edərək bu qələbəni illərlə yürüdülmüş müdrik siyasətin, siyasi uzaqgörənliyin, iqtisadi islahatların, xalqın iqtidara göstərdiyi yüksək etimadın, xalq-dövlət vəhdətinin ən ali təcəssümü olduğunu bildirdilər.



## Ədalətin bərpası

Xalqımız öz liderinin – Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək müasir Azərbaycan tarixinin ən böyük uğurunu-bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə – Ali Baş Komandana sahib olduğunu aşkar gördü. 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Uzaqgörən lider İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzü birmənalı olaraq təsdiq etdi. Prezident İlham Əliyev yalnız hərb meydanında Müzəffər Sərkərdə kimi deyil, diplomatik cəbhədə də böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Cənab Prezidentin dediyi kimi: ***“Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan hərbi birləşmələrinin heç bir hədəfi, heç bir məqsədi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və torpaqlarımızı işğaldan azad edəcəyik”.***

Zamanın gedişini haqqın-ədalətin bərpası istiqamətində dəyişən müdrik lider və yenilməz sərkərdə İlham Əliyev dühasının Azərbaycana qazandırdığı möhtəşəm qələbə xalqa ən dəyərli ərmağan oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis olunması, Qarabağda aparılmış qısamüddətli antiterror əməliyyatı nəticəsində əzəli yurdlarımızın erməni separatçılarından tam təmizlənməsi, Xankəndidə dövlət bayrağımızın ucaldılması, Azərbaycanın qəlbindəki illərin yarasının sağalması ilə yaddaşımıza yazılmış böyük bir günün əlamətdar tarixi kimi təqvimə qovuşdu.

Haqq savaşımızda əldə etdiyimiz qələbə Azərbaycan tarixində, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bu qələbə sayəsində qalib xalq kimi özünü dünyaya bəyan etdi. Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatdı.

## Xalqın inamı

44 günlük Vətən müharibəsi və 2023-cü ilin antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi.

Xalqın öz liderinə yüksək inamının nəticəsi idi ki, 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində İlham Əliyev inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçildi. Bu seçki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisi idi. Son 20 ildə bütün bu uğurların şahidinə çevrilən Azərbaycan xalqı əldə olunan nailiyyətləri ölkə Prezidenti cənab İlham Əliyevin ümummilli maraqlara söykənən məqsədyönlü siyasətinin məntiqi nəticəsi hesab edərək səsini cənab İlham Əliyevə verməklə Ümummilli Lider Heydər Əliyevin ideyalarına sədaqətini nümayiş etdirdi.

### Beynəlxalq aləmdə söz sahibi

Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir.

Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib.

Ölkə Prezidenti cənab İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərdə iştirak etməsi, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. Nəticədə, Avropa ölkələri Azərbaycanla əməkdaşlığa yüksək önəm verir, Prezident İlham Əliyevi Avropa üçün ən önəmli LİDER hesab edirlər.

Beynəlxalq təşkilatlara rəhbərlik etməkdə zəngin təcrübə qazanan Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi müxtəlif vaxtlarda bu quruma iki dəfə sədrlik edib. Qoşulmama Hərəkatının sədri olduğu müddətdə həyata keçirilən tədbirlər qurumun üzv dövlətləri tərəfindən yüksək dəyərləndirilib. Mötəbər tədbirlərə uğurlu ev sahibliyi etmək Azərbaycanın beynəlxalq aləmdə olan reytinqini getdikcə artırıb. Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət və diplomatik məharət nəticəsində mümkün olmuşdur. Bununla bərabər Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə prosesinə ciddi töhfə verən ölkə kimi tanınması onun COP29-a ev sahibliyi etmək imkanını daha da gücləndirdi.

COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar ölkəmizə növbəti dəfə böyük etimad və inamın göstəricisi oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında vurğuladığı kimi: ***“Ötən ilin dekabrında, təxminən, 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük”.***

Vətən müharibəsindəki zəfərimizin ilk rəsmi təsdiqi – 10 noyabr bəyanatında Azərbaycan liderinin sülh gündəliyinə daxil etməyə müyəssər olduğu “Zəngəzur dəhlizi” layihəsi cənab İlham Əliyevin Qafqaza dayanıqlı sülh və davamlı inkişaf gətirmək missiyasının son dərəcə əhəmiyyətli parçasıdır.

ABŞ-də imzalanmış Birgə Bəyannamə ilə ən böyük məqsədlərimizdən birinə – Zəngəzur dəhlizinin açılmasına, Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz çıxışın təmin edilməsinə nail ola bildi.

8 avqust 2025-ci ildə Vaşinqtonda, Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanla Birgə Bəyannamə imzaladı və Azərbaycanla Ermənistan arasında sülh sazişinin layihəsi paraflandı. Azərbaycanla Ermənistan arasında uzun illərdən sonra əbədi sülhün əldə olunmasına, bölgəmizdə bütün tərəflər üçün qarşılıqlı əməkdaşlıq, dayanıqlı inkişaf mühitinin yaranmasına, bu torpaqlarda yaşayan insanların rifah və xoşbəxtliyinə yol açan belə mühüm addımla Cənubi Qafqazda yeni strateji dövr başlandı.

2020-ci ildə 44 günlük müharibə nəticəsində qazandığımız tarixi zəfər, 2023-cü ildə həyata keçirilmiş 23 saatlıq antiterror əməliyyatı ilə Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin tam təmin olunması, qələbəmizin bütün dünyada qəbul edilməsi kimi bu yeni reallığın müəllifi – gücü, qətiyyəti xalqımızın sarsılmaz dəstəyindən, Vətənə, xalqa sevgisindən gələn Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

Bu böyük dövlət adamının Azərbaycan adına son bir neçə ildə əldə etdiyi nəticələrin mahiyyətinə diqqət yetirdikdə fərq edirsən ki, bu proseslərin heç biri qısa zamanda və asanlıqla baş verməyib, hər birinə illərin, onilliklərin zəhməti sərf olunub.

8 avqust 2025-ci ildə Ağ Evdə dövlət rəhbərimizin iştirakı ilə baş verən və qəlbi Vətənə bağlı bütün dünya azərbaycanlılarını qürurlandıran o unudulmaz anlar da, əslində, illərlə düzgün görülmüş işlərin, düzgün atılmış strateji addımların, düzgün hesablanmış qərarların məntiqi nəticəsidir.

### Milyonların sevgisi

Ölkəmizin uğurları, tarixə yazılan möhtəşəm qələbələr deməyə əsas verir ki, dövlətimizin başçısı qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaq üçün istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirərək Azərbaycanın timsalında “Güclü dövlət” konsepsiyasını reallaşdırmağa nail olmuşdur. Prezident İlham Əliyev qurucu, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün qüvvəsini bu vəzifələrin reallaşmasına səfərbər edən, milyonların sevgisini qazanan alternativsiz LİDERdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çox qısa zaman kəsiyində ölkəmizin qazandığı bütün bu uğur və qələbələr Ümummilli Liderin dediyi ***“Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq”*** sözlərini gerçəkləşdirdi.

**Arzu ABDULLAYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini*

# Yüksəlişin və zəfərin memarı



***Başa çatmaqda olan 2025-ci il Azərbaycan Respublikasının tarixində növbəti uğurlu mərhələ kimi yadda qalacaq. Ötən dövrün siyasi mənzərəsi və sosial-iqtisadi reallıqları göstərir ki, qarşıya qoyulmuş bütün vəzifələr il ərzində qətiyyətlə icra olunub, respublikamız özünün milli məqsəd və prioritet hədəflərinə doğru inamla irəliləyib. Bu il cənab Prezident İlham Əliyev Azərbaycanın həm regional, həm də beynəlxalq səviyyədə mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Respublikamızın Çin və ABŞ kimi dünyanın siyasi-iqtisadi nəhəngləri, o cümlədən Avropa İttifaqının üzvləri ilə strateji tərəfdaşlıq münasibətlərini daha da dərinləşdirib.***

### *Liderlik formulu*

Xüsusilə qeyd edilməlidir ki, 2025-ci il Azərbaycanın Qarabağ zəfərinin beynəlxalq səviyyədə qəbul edilməsi baxımından əlamətdar il oldu. Bu ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin mətninin paraflanması Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində regionda yaranmış yeni reallıqların qlobal miqyasda tam qəbul edilməsinin təzahürüdür.

2025-ci ilin nailiyyətləri həm də belə bir həqiqəti bir daha təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin ölməz ideyaları, müəyyən etdiyi strateji yol layiqincə davam və inkişaf etdirilir.

Tarix sübut edir ki, məhz güclü liderləri sayəsində dövlətlər daha da güclənir, inkişaf edir. Zəif rəhbərlərin idarəetməsi isə, əsasən, daxili çəkişmələr, tənəzzül və ya ən yaxşı halda durğunluqla nəticələnir. Güclü və uğurlu liderlər milli ideyanın formalaşmasında və möhkəmlənməsində mühüm rol oynayırlar. Onlar cəmiyyətin dəyərlərini, milli maraqlarını və strateji məqsədlərini aydın şəkildə ifadə edərək xalqı, milləti ümumi ideya ətrafında birləşdirirlər. Bu birlik isə dövlətin güclənməsinə, milli həmrəyliyin artmasına və beynəlxalq arenada nüfuzunun yüksəlməsinə şərait yaradır.

Bu gün  Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dahi Heydər Əliyev siyasi yolunun ən layiqli davamçısı kimi özünün bütöv fəaliyyəti ilə güclü liderliyin ən mükəmməl formulunu yaradır.  Prezident cənab İlham Əliyevin dünya miqyasında yorulmaz fəaliyyətindən bəhs edəndə, ölkəmizə rəhbərlik etdiyi dövrün siyasi-iqtisadi mənzərəsinə qısa ekskurs edəndə həm də Ulu Öndər Heydər Əliyevin nə qədər müdrik şəxsiyyət olduğunu bir daha anlayırıq, bir daha görürük. Hələ 2003-cü ildə prezident seçkilərindən əvvəl xalqa müraciətində Ulu Öndər demişdi: ***"Üzümü Sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

### *İnkişafın banisi*

2003-cü ilin oktyabrın 31-də keçirilən andiçmə mərasimində ilk dəfə Azərbaycan Prezidenti kimi and içən cənab İlham Əliyev özünün fəaliyyət proqramını, qarşıda dayanan ümummilli hədəfləri açıqlayaraq demişdi: ***"Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".***

Prezident cənab İlham Əliyevin andiçmə mərasimindəki çıxışı, sadəcə, prezident seçkilərinin protokolundan irəli gələn bir məsələ deyildi. Prezident cənab İlham Əliyevin həmin vaxt söylədiyi fikirlər qarşıya qoyulan vəzifələrin, tarixin ən güclü Azərbaycanı üçün gediləcək yolun mükəmməl yol xəritəsi idi.

Ötən 22 ilin siyasi və iqtisadi mənzərəsi Prezident cənab İlham Əliyevin verdiyi bütün vədlərin həyata vəsiqə aldığını bütün miqyası və əzəməti ilə təsdiq edir. Böyük qürurla qeyd etməliyik ki, Prezident cənab İlham Əliyevin müəllifliyi ilə ötən 22 ildə Azərbaycanın müasir dövlətçiliyinin möhtəşəm, şərəfli və qürurverici tarixi yazılıb. Müqayisəli şəkildə təhlil etsək, həm iqtisadi, həm də dövlətin nüfuzunu müəyyən edən göstəricilərin bu illərdə nə qədər dəyişdiyini görərik. Cəmi bir neçə statistik göstəriciyə nəzər salmaqla bu inkişafın əzəmətli nəticəsini görmək və bilmək mümkündür. 2003-cü ildə Azərbaycanın dövlət büdcəsinin gəlir və xərcləri, təxminən, 1,2 milyar manat civarında olmuşdur. Bu gün, yəni 2025-ci ildə Azərbaycanın dövlət büdcəsinin xərcləri artıq 41 milyard manatı ötüb. 2003-cü ildə ölkəmizdə ümumi daxili məhsul istehsalı 7 milyard dollar səviyyəsində idisə, təkcə 2025-ci ilin birinci yarısında ölkəmizdə 72 milyard manatdan artıq ümumi daxili məhsul istehsal edilib və bu rəqəmin ilin sonuna 129 milyard manatı ötəcəyi gözlənilir.  22 il əvvəl Azərbaycanın strateji valyuta ehtiyatları 1,6 milyard ABŞ dolları həcmində idi. Bu gün isə strateji valyuta ehtiyatlarımız 81,5 milyard ABŞ dollarından çoxdur. Bütün bu göstəricilər Prezident cənab İlham Əliyevin liderliyi ilə müstəqil Azərbaycanın  getdiyi inkişaf yolunu əks etdirən rəqəmlərdir. Bu illər ərzində Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu enerji siyasətinin qətiyyətlə davam etdirilməsi, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi kimi nəhəng enerji infrastrukturlarının yaradılması Azərbaycanın iqtisadi inkişafına böyük təkan verməklə yanaşı, dövlətimizi regionda və qlobal səviyyədə söz sahibinə çevirib.

Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli, müstəqil və balanslaşdırılmış xarici siyasətin nəticəsi olaraq Azərbaycan bu gün dünyanın bütün siyasi və iqtisadi qütbləri ilə səmimi strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Prezident cənab İlham Əliyevin özü isə dünyanın ən nüfuzlu siyasi liderləri sırasında yer alaraq dünya lideri səviyyəsinə yüksəlib. Təkcə son bir neçə ayda Prezident cənab İlham Əliyevin etdiyi xarici səfərlərə və iştirak etdiyi beynəlxalq tədbirlərin statusuna nəzər salsaq, bunu görə bilərik. Prezident cənab İlham Əliyevin bu ilin avqustunda ABŞ və Çinə səfərləri, BMT Baş Assambleyasının 80-ci sessiyasında, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə Görüşündə, Misirdə keçirilən Yaxın Şərq Sülh Sammitində iştirakı Azərbaycanın güclü qlobal mövqeləri ilə bərabər, dövlətimizin başçısının bütün siyasi platformalarda böyük ehtiramla qarşılanan böyük siyasi lider olduğunu açıq nümayiş etdirdi.

### *Xalqımıza qalibiyyət yaşadan Müzəffər Lider*

Prezident cənab İlham Əliyevin fəaliyyətini xarakterizə edən ən mühüm göstəricilərdən biri dövlətimizin başçısının verdiyi  bütün vədləri qətiyyətlə, dönmədən yerinə yetirməsidir. Yadımızdadır ki, dövlətimizin başçısı ölkəmizdə çadır şəhərciklərinin ləğvi ilə bağlı verdiyi vədi vaxtından bir il  tez – 2007-ci ildə yerinə yetirdi. Hələ o zaman Azərbaycan ictimaiyyəti əmin idi ki, torpaqlarımız mütləq işğaldan azad olunacaq və məcburi köçkünlər üçün doğma Qarabağda yeni evlər inşa ediləcək. Çünki hələ bundan bir neçə il əvvəl 2003-cü ildə keçirilən andiçmə mərasimində Prezident cənab İlham Əliyev demişdi: ***"Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".***

Beləliklə, Prezident cənab İlham Əliyevin respublikamıza rəhbərliyinin ilk günündən torpaqlarımızın işğaldan azad olunmasını prioritet vəzifə kimi müəyyən etməsi, bu istiqamətdə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirməsi, bütün çıxışlarında Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyini qətiyyətlə bildirməsi başqa cür düşünməyə əsas vermirdi. Və bütün bunlar xalqımızın iradəsinin, inamının əsasında dayanan göstəricilər, əsas amillər idi.

2020-ci ilin sentyabrın 27-də başlayan və cəmi 44 günə torpaqlarımızın 30 illik işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsi xalqımızın bu inamının həyata vəsiqə alması ilə nəticələndi. 44 gün davam edərək düşmənin diz çökdürülməsi ilə başa çatan bu tarixi savaş Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin milli maraqlarımızı təmin edən qətiyyətli daxili və xarici siyasətinin və milli ordumuzun yüksək döyüş qabiliyyətinin ən möhtəşəm  təntənəsinə çevrildi.

2023-cü ildə Qarabağda həyata keçirilən antiterror tədbirləri nəticəsində ərazilərimizdəki erməni separatizminə və dünya erməniliyinin illərdir, apardığı böhtan, şər kampaniyasına nidalı son qoyulması isə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətinin, əsl sərkərdə kimi döyüşlərdə göstərdiyi şücaətinin növbəti təcəssümü oldu. Bununla da bütün ərazilərimizdə Azərbaycanın milli suverenliyi və Konstitusiyamızın hüquqi qüvvəsi təmin edildi.

Bu ilin avqustunda Vaşinqtonda sülh sazişi layihəsinin paraflanması, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə  nəqliyyat əlaqəsini təmin edəcək Zəngəzur dəhlizinin açılması istiqamətində razılaşmanın əldə olunması və ondan sonrakı mərhələdə bu istiqamətdə məqsədyönəlik fəaliyyətin davam etdirilməsi isə göstərir ki, zəfərimizin memarı olan Prezident cənab İlham Əliyev həm də regionda sülhü, təhlükəsizliyi və əməkdaşlığı təmin edir.

### *Dövlətə və xalqa xidmət məramı, silahdaşlıq missiyası*

Ərazi bütövlüyümüzü tam bərpa edən Prezident cənab İlham Əliyev bu gün lider qətiyyəti ilə işğaldan azad olunmuş torpaqlarımızı dirçəldir, onlara yeni həyat bəxş edir. Bu prosesdə Prezident İlham Əliyevin ən böyük silahdaşı isə respublikamızın Birinci-vitse Prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevadır. Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə Heydər Əliyev Fondu Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən layihələrlə bu ərazilərin bərpa və quruculuğuna böyük töhfələr verir.

Daşıdığı bütün vəzifələrdə Mehriban xanım Əliyevanın bir amalı var: dövlətə və xalqa layiqli xidmət etmək. Mehriban xanım Əliyevanın həm respublikamızın Birinci vitse-Prezidenti, həm Heydər Əliyev Fondunun prezidenti kimi, həm də 2005-2017-ci illərdəki deputatlıq fəaliyyəti dövrünü təhlil edəndə görürük ki, Onun gördüyü bütün işlərin təməlində  respublikamızın yüksəlişinə xidmət missiyası, humanizm prinsipləri dayanıb. Bütün bunlar Mehriban xanım Əliyevanın yüksək vətənpərvərlik dəyərlərinin, böyük Heydər Əliyev yolunun milli ideya daşıyıcısı olduğunu göstərir.

Ümumilikdə isə Mehriban xanım Əliyevanın görkəmli siyasi xadim kimi indiyədək daşıdığı bütün vəzifələrdə həyata keçirdiyi uğurlu fəaliyyəti, qazandığı yüksək nüfuzu, xalqımızın Ona olan sonsuz sevgisi, saf məhəbbəti ilə silahdaşı Prezident cənab İlham Əliyevin daxili və xarici siyasətinin daha böyük nailiyyətlər qazanmasına böyük töhfələr verir. Azərbaycanın ötən 22 ildəki inkişaf reallıqları həm də bu həqiqətin təzahürüdür.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində respublikamızın keçdiyi inkişaf yolu bütün göstəricilər baxımından 22 ilin reallıqlarından çox böyükdür.  Böyük Heydər Əliyev ideyaları, Prezident İlham Əliyev siyasəti həm də Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib, ərazi bütövlüyümüzü təmin edib, ölkəmizə nüfuz gətirib.  Əminik ki, bu siyasət qarşıdakı dövrlərdə də Azərbaycan tarixini ən əlamətdar uğurlarla şərəfləndirəcək.

**Bəxtiyar ƏSGƏROV**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin rəhbəri***

# Gələcəyə hesablanmış dövlət siyasəti: Azərbaycanın yeni siyasi konfiqurasiyası




***Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atmışdır. Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi. Ümummilli Liderimiz Heydər Əliyevin başlatdığı bütün işləri, onun arzularını reallığa çevirdi, Ata vəsiyyətini yerinə yetirdi. Artıq bütün dünya qəbul etməlidir ki, Qafqaz regionunda vəziyyət dəyişir və bu dəyişikliklərin böyük dərəcədə təşəbbüskarı Azərbaycandır.***

***Məhz bu dəyişikliklərin nəticəsi olaraq 2025-ci il avqustun 8-də ABŞ Prezidenti Donald Trampın ev sahibliyi ilə Vaşinqtonda Ermənistan-Azərbaycan görüşü keçirildi və görüşün əsas məqsədi hər iki Cənubi Qafqaz ölkəsi arasında münasibətlərin normallaşdırılmasından ibarət oldu. Lakin danışıqların əsas mahiyyəti, sadəcə, Cənubi Qafqazda bu iki ölkə arasında münasibətləri normallaşdırmaqdan ibarət deyildi. Daha geniş mənada, bu, Azərbaycanın Xəzər hövzəsi, Mərkəzi Asiya və Avropa arasında geostrateji körpü rolunu möhkəmləndirməyə xidmət edən bir görüş kimi tarixə keçdi.***

## Uğurlu xarici siyasət və qlobal əhəmiyyətli təşəbbüslər

Vaşinqton görüşünün ən yaddaqalan elementlərindən biri də TRIPP təşəbbüsüdür. Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu Ermənistan ərazisindən keçərək Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirməyi nəzərdə tutur. Layihə təkcə ikitərəfli əlaqələrin normallaşmasına deyil, həm də regional bağlantı şəbəkəsinin qurulmasına da öz töhfəsini verir. Ümumilikdə, Vaşinqton görüşü cənab İlham Əliyevin uzaqgörən diplomatiyası nəticəsində Xəzər regionunun strateji mənzərəsinin yenidən formalaşdırılması istiqamətində bir təşəbbüs kimi tarixə yazıldı. Bu təşəbbüs Mərkəzi Asiya və Cənubi Qafqaz arasındakı əlaqələrdə Azərbaycanın rolunu daha da möhkəmləndirir.

Cənab Prezidentin ən böyük strateji layihələrindən olan Zəngəzur dəhlizinin fəaliyyətə başlaması, əlbəttə ki, sabitliyin və təhlükəsizliyin artırılması baxımından, həmçinin uzunmüddətli sülh və iqtisadi fəaliyyət baxımından çox mühüm əhəmiyyətə malikdir. Azərbaycan Qərbə və Şərqə çıxışı olan dövlət kimi balanslı nəqliyyat əlaqələrini inkişaf etdirir və bu prosesdə fəal iştirak edir. Azərbaycanın Orta Dəhlizin ən önəmli seqmentlərindən birinə çevrilməsi Zəngəzur dəhlizinin reallaşmasından çox asılıdır. Bu istiqamətdə Azərbaycanda mühüm işlər həyata keçirilir. Ələt Azad İqtisadi Zonasının tikintisindən tutmuş, Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolunun və Horadiz-Ağbənd dəmiryol xəttinin çəkilməsi və xüsusilə Naxçıvanda genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi məhz Zəngəzur dəhlizinin səmərəliliyinin artırılmasına hesablanıb.

Bu layihə təkcə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat körpüsü deyil, həm də Çin və Orta Asiya ölkələrini Azərbaycan-Türkiyə vasitəsilə Avropanın tranzit-nəqliyyat xəttinə bağlayır. Azərbaycana gəldikdə isə Zəngəzur dəhlizi ölkəmizi Şərq və Qərbin mühüm iqtisadi tərəfdaşına çevirir. O cümlədən ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını faktiki olaraq nəqliyyat-kommunikasiya blokadasından çıxarır. Ona görə də cənab Prezidentin təbirincə desək, Ermənistan bunu istəsə də, istəməsə də, Zəngəzur dəhlizi icra olunacaq. Zəngəzur dəhlizi böyük Turan yolunun bir parçasına çevriləcək. Bu gün Prezident İlham Əliyev Zəngəzur dəhlizini bərpa etməklə həm də Ata vəsiyyətini yerinə yetirmiş olur. Çünki bu tarixi milli məsələ uzun illər Ulu Öndərimizin həyata keçirmək istədiyi bir missiya idi.

Prezident İlham Əliyevin müəllifi olduğu Zəngəzur dəhlizi layihəsi özündə çoxsaylı nəticələri birləşdirir. Belə ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı bu dəhliz birləşdirir. Beləliklə, muxtar respublikanın blokadasına son qoyulur, Azərbaycan və Türkiyə arasında quru əlaqələri yaradılır, Türkiyədən başlayaraq Mərkəzi Asiyaya qədər uzanan Türk dünyasında coğrafi parçalanma aradan qalxır. Bütün region dövlətləri – Azərbaycan, Türkiyə, Ermənistan, Rusiya, İran, eləcə də regiondan kənar ölkələr – Çin, Avropa İttifaqı, ABŞ üçün iqtisadi, logistik dividendlər əldə etmək imkanları yaranır.

Təbii ki, Zəngəzur dəhlizi mövzusuna qədər olan dövrə nəzər salanda görürük ki, əslində, bu ideya, ümumilikdə, bu bəyannamənin imzalanmasından əvvəlki dövrdə də hər zaman öz aktuallığını qoruyub. Buna misal olaraq, 2019-cu ildə bu istiqamətdə atılmış ilk addımı qeyd etmək olar.

Belə ki, Türk Dövlətlər Təşkilatının 2019-cu ildə keçirilən Bakı zirvəsində Prezident İlham Əliyev tərəfindən bəyan edildi ki, Zəngəzur bölgəsinin Azərbaycandan alınaraq Ermənistana verilməsi böyük Türk dünyasını coğrafi baxımdan parçaladı. Bu zaman aydın olur ki, həmin tarixdən on il öncə – 2009-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının məhz Naxçıvanda təsis edilməsindəki əsas hədəflərdən biri də məhz bu coğrafi parçalanmanı aradan qaldırmaq, yəni Zəngəzur dəhlizini reallaşdırmaqdan ibarət olmuşdur. Əlbəttə ki, 2020-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə üçtərəfli bəyanata salınan Naxçıvana maneəsiz keçidin verilməsi, yəni Zəngəzur dəhlizinin açılması öhdəliyini götürən Ermənistan ötən illər ərzində, yəni 2020-2025-ci illər ərzində buna əməl etməmək üçün əlindən gələni edirdi. Hətta bunu dəstəkləyən bir sıra Qərb ölkələri də var idi.

Lakin bütün bunlara baxmayaraq, cənab İlham Əliyev bu geosiyasi oyunları pozmağı bacardı və Vaşinqton görüşündə tarixi nailiyyətə imza atdı. Avqustun 8-də Ağ Evdə görüşən Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Birgə Bəyannaməni imzaladılar. Bəyannamədə Azərbaycanın Naxçıvana maneəsiz çıxışının təmin edilməsi, Zəngəzur dəhlizi ilə bağlı konkret qeydlər yer aldı və Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantısı burada dəstəkləndi.

Hazırda Zəngəzur dəhlizini siyasi müstəvidə reallaşdıran Azərbaycan layihənin praktik müstəvidə icrası istiqamətində də genişmiqyaslı işlər həyata keçirir. Dəhlizin Azərbaycan hissəsində tikinti işlərinə 44 günlük Vətən müharibəsindən dərhal sonra start verilib və burada çox ciddi infrastruktur işləri həyata keçirilir. Ümidvarıq ki, tezliklə bu böyük missiyanın – Zəngəzur dəhlizinin Azərbaycan üçün siyasi və iqtisadi üstünlükləri ilə proses yekunlaşacaq və tarixi ideyanı gerçəkliyə çevirən Prezident İlham Əliyev bu nailiyyəti ilə də böyük bir coğrafiyanın gələcək inkişafını müəyyənləşdirməyə xidmət edən böyük bir siyasətin müəllifi və lideri kimi daim tarixdə yaşayacaq.

Prezident cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Böyük İpək Yolunun şaxələnməsi istiqamətində həyata keçirilmiş Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, TANAP və TAP qaz boru kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Avrasiya Nəqliyyat Dəhlizinin əsas sütunları sırasındadır. Təbii ki, bu tarixi İpək Yolunun bərpası, Avropa, Qara dəniz, Xəzər dənizi və Asiya regionlarında təbii ehtiyatlardan istifadə və qarşılıqlı faydalı əməkdaşlıq İpək Yolunun əsas missiyasını ifadə edir.

Zəngəzur dəhlizinin perspektivləri, Türk dünyasının bütünləşməsi istiqamətində atılan ciddi addımlar məhz Böyük İpək Yoluna yeni bir mahiyyət, yeni bir çalar, yeni bir siyasi üstünlük qazandırdı. Beləliklə, Böyük İpək Yolunun Zəngəzur dəhlizi hissəsində də Azərbaycanın təşəbbüslərinin ələ alınması və dəhlizin istifadəyə verilməsi ilə bağlı son illərdə həyata keçirilmiş tədbirlər, yaxın dövrlərdə Azərbaycanın tarixən olduğu kimi, müasir dövrdə də Böyük İpək Yolu üzərində olan mühüm məntəqə kimi əhəmiyyətinin artmasını şərtləndirən çox ciddi arqumentlərdir. Böyük İpək Yolu və Şərq-Qərb enerji dəhlizi sisteminin yaranması, mövcud və perspektiv nəqliyyat dəhlizləri XXI əsrin qlobal tarixi hadisələri kimi bu gün gündəmdədir. 30-dan artıq dövlətin ərazisindən keçərək onları birləşdirən tarixi İpək Yolunun əhəmiyyəti ölçüyəgəlməz mahiyyət kəsb edir. Təqdirəlayiq haldır ki, Azərbaycan bir çox layihələrdə olduğu kimi Böyük İpək Yolu layihəsinin də mərkəzi hissəsində yerləşən dövlətlərdən biridir.

44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin öndərliyi ilə ölkəmizin qarşısında dayanan növbəti ideoloji istiqamət soydaşlarımızın işğaldan azad olunmuş torpaqlara və bununla bərabər tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycandan sürgün olunmuş, didərgin düşmüş soydaşlarımızın öz ata-ana yurdlarına, torpaqlarına qayıtmasından ibarətdir.

Bunun üçün Ali Baş Komandan, möhtərəm cənab Prezidentin bəyan etdiyi "Qərbi Azərbaycana Qayıdış" Konsepsiyası ətrafında bu gün ölkə ziyalıları birləşib, Qərbi Azərbaycan İcması xətti ilə keçirilən tədbirlər cənab Prezidentin bu sahədə verdiyi tapşırıqların icrasına mühüm töhfə kimi qiymətləndirilir. Qərbi Azərbaycan icması ilə görüşdə cənab Prezidentin verdiyi tapşırıqlar, Qərbi Azərbaycana dinc, ədalət və sülh yolu ilə qayıtmaqda ziyalıların, ali təhsil və ümumi təhsil müəssisələrinin, bütövlükdə, bu sahədə fəaliyyət göstərən qurumların üzərinə böyük vəzifələr qoyub. Belə ki, Qərbi Azərbaycana qayıdışın elm yolu ilə, sülh yolu ilə gerçəkləşdirilməsi başlıca vəzifə kimi müəyyənləşdirilib. Ötən dövr ərzində "Qərbi Azərbaycana Qayıdış" Konsepsiyasının icrası məqsədilə bir sıra layihələr gerçəkləşdirilmişdir. O cümlədən Naxçıvan Dövlət Universitetinin təşəbbüsü və təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" festival-konqresi Naxçıvanda iki dəfə gerçəkləşdirilib. Eyni zamanda cənab Prezidentin tapşırığına uyğun olaraq Qərbi Azərbaycan İcması xətti ilə Bakı şəhərində artıq iki ildir, ardarda beynəlxalq konfrans keçirilir. Cənab Prezidentin müəyyənləşdirdiyi kimi, Qərbi Azərbaycana qayıtmağın yolu sülh yoludur.

Qərbi Azərbaycan İcmasının Naxçıvan Muxtar Respublikası nümayəndəliyi də ötən müddət ərzində öz üzərinə düşən vəzifələri yerinə yetirmək üçün müxtəlif tədbirlər həyata keçirib. O cümlədən Naxçıvan Dövlət Universitetində Qərbi Azərbaycanın mədəniyyətinin, abidələrinin və toponimlərinin öyrənilməsi üçün yeni seçmə fənlər təyin olunub. Artıq bu fənlər üç ildir, tədris olunur.

Bütövlükdə, Qərbi Azərbaycana qayıdış prosesi, qayıdış ideologiyası və konsepsiyası gələcəkdə bu prosesdə Zəngəzur dəhlizində olduğu kimi, regiona sülh, sabitlik gətirmək məqsədi daşıyır. Dinc, birgə yaşayış qaydalarını təmin etməyi və beynəlxalq hüququn normalarına hörmət etməyi əsas missiyası kimi düşünür. Bu baxımdan, əldə olunmuş nailiyyətlər onu deməyə əsas verir ki, bizim bu arzumuzun da gerçəkləşməsinə çox az zaman qalıb və biz qısa vaxtdan sonra soydaşlarımızın öz ata-baba yurdlarının qayıtmağının şahidlərinə çevriləcəyik.

Bu gün Azərbaycan xalqı formalaşmış yeni reallıqlar mühitində inamla və qürurla öz inkişafının növbəti mərhələsinə qədəm qoyub. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə yeni dövrdə qarşıda duran strateji vəzifələrimiz müstəqilliyimizi, əldə olunmuş nailiyyətləri daha da möhkəmləndirmək, Azərbaycanı davamlı və dayanıqlı inkişaf edən ölkəyə çevirməkdir.

**Elbrus İSAYEV**
***Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent***

# Zəngəzur dəhlizi:



## beynəlxalq iqtisadi münasibətlərin, ticarət əlaqələrinin inkişafında yeni mərhələ

*Azərbaycanın təşəbbüsçüsü olduğu, bilavasitə, iştirakı ilə reallaşan elə bir layihə yoxdur ki, beynəlxalq əlaqələr sisteminin möhkəmləndirilməsinə, regional əməkdaşlığın gücləndirilməsinə töhfə verməsin. Bu sırada Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), Cənub Qaz Dəhlizi, Şimal-Cənub, Şərq-Qərb Nəqliyyat dəhlizlərini, Bakı-Tbilisi-Qars dəmir yolunu nümunə göstərmək olar. Hazırda Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzinə çevrilən Azərbaycandan keçən dəhlizlər dünyanın "super güc"ü ABŞ, ikinci ən böyük iqtisadiyyata malik Çin də daxil olmaqla, Mərkəzi Asiya, həmçinin Avropa İttifaqı ölkələrinin böyük marağındadır. Təqdirəlayiq hal ondadır ki, respublikamız okeana çıxışı olmadan əsas nəqliyyat-tranzit mərkəzi statusunu qazanmağa müvəffəq olub. Prezident İlham Əliyev də ölkəmizin statusunu görülən işlərin timsalında mühüm nailiyyət kimi dəyərləndirib:* ***"Onu da bildirməliyəm ki, adətən, nəqliyyat mərkəzləri statusuna malik olan ölkələr o ölkələrdir ki, onların açıq dənizlərə çıxışı var. Bizim isə dünya okeanlarına çıxışımız yoxdur. Amma buna baxmayaraq, gördüyümüz işlər nəticəsində biz Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevirmişik".***

Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra qalib ölkə kimi regionda yaratdığı yeni reallıqlar fonunda irəli sürdüyü Zəngəzur dəhlizi layihəsi Orta Dəhlizin effektivliyini daha da artırmaqla uzaq gələcək üçün həm beynəlxalq iqtisadi münasibətlərin, həm də qlobal nəqliyyat şəbəkəsinin, ticarət əlaqələrinin güclənməsində mühüm əhəmiyyət daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında bu il avqustun 8-də Ağ Evdə baş tutan görüşlər çərçivəsində əldə olunan tarixi razılaşmalardan sonra artıq bu layihənin reallaşmasına qarşı mövcud əngəllər tamamilə aradan qaldırılıb. Respublikamız təşəbbüs göstərdiyi bütün layihələr kimi, Zəngəzur dəhlizinin də gerçəkləşməsi yönündə üzərinə düşən bütün tədbirləri vaxtında və dəqiqliklə icra etməkdədir. Cari il oktyabrın 21-də Astanada Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə görüşündən sonra mətbuata bəyanatında da dəhlizin böyük potensiala malik olduğunu diqqətə çatdırdı, layihənin reallaşması yönündə ölkəmizin həyata keçdirdiyi işləri vurğuladı: ***"Hazırda planlaşdırdığımız və həyata keçirdiyimiz bütün işlərlə yanaşı, Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində bütün avtomobil və dəmir yolu əlaqələri gələn ilin ortalarına qədər tamamlanacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də hər şey belə sürətlə reallaşdırılacaq və belə olan halda Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonuna qədər baş verə bilər".***

Dekabrın 5-dən Zəngəzur dəhlizinin Naxçıvan hissəsində də işlərə başlanılıb. Belə ki, "Azərbaycan Dəmir Yolları" QSC Naxçıvan Muxtar Respublikasında dəmir yolu infrastrukturunun yenidən qurulması və modernləşdirilməsi üçün layihələndirmə işlərini başa çatdırıb. Hazırda Ermənistanla sərhəddə, Ordubad rayonunun Salamməlik stansiyası ərazisində tikinti işləri aparılır. Tikinti işləri 188 kilometrlik dəmiryol xəttini əhatə edir. Məqsəd müasir tələblərə cavab verən yeni dəmir yolu şəbəkəsinin qurulmasıdır. Əsaslı təmir işləri başa çatdıqdan sonra dəmir yolunun illik yükötürmə qabiliyyəti 15 milyon ton təşkil edəcək. Bu xüsusda nəzərə alsaq ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas halqalarından sayılan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükötürmə qabiliyyəti 5 milyon tondur, o zaman 15 milyon ton yükötürmə gücünə malik olacaq Zəngəzur dəhlizinin Orta Dəhlizin potensialının artırılmasında daha böyük əhəmiyyətə malik olacağını demək çətin deyil. Bir fakta da diqqət çəkmək olar ki, "The Times of India" qəzetinin yazdığına görə, qarşıdakı illərdə Avropa ilə Asiya arasında ticarət dövriyyəsinin həcmi 200 milyard dollar artacaq. Hazırda bu qitələr arasındakı ticarət dövriyyəsinin həcmi 500 milyard dollar təşkil edir. Yəni görünən odur ki, il ötdükcə daşınan yüklərin həcmi xeyli artacaq. Belə olan halda Zəngəzur dəhlizinin yaxın bir neçə ildə reallaşmasını bütün region ölkələrinə böyük fayda gətirəcək mütərəqqi addım kimi dəyərləndirmək olar.

Zəngəzur dəhlizi layihəsi bir sıra aspektlərdən, həm beynəlxalq, həm də regional baxımdan olduqca mühüm siyasi, iqtisadi elementləri özündə ehtiva edir. Dəhlizin reallaşması əsas tərəflərdən biri kimi çıxış edən ABŞ-nin, o cümlədən dünyanın ikinci ən böyük iqtisadiyyata malik ölkəsi Çinin xüsusi marağındadır. Belə ki, layihə tarixi İpək Yolunun bərpasını hədəfləyən Çin rəhbəri Si Cinpinin "Bir kəmər, bir yol" təşəbbüsü üçün mühüm perspektivlər vəd edir. Dünya Bankının təşəbbüsə dair hazırladığı hesabatda deyilir ki, əgər "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində həyata keçirilən nəqliyyat layihələri tam olaraq reallaşsa, ümumdünya ticarət dövriyyəsinin həcmi 6,2 faiz yüksələr ki, bu da, öz növbəsində, gəlirlərin 2,9 faizə qədər artmasına səbəb olacaq. Dövriyyənin və gəlirlərin artması isə iştirakçı ölkələrdə yoxsulluğun aradan qalxmasına, yeni iş yerlərinin açılmasına və sərmayələrin səmərəliliyinə imkanlar yaradacaq. Bu faktlar da bir daha Zəngəzur dəhlizinin nə qədər böyük qlobal əhəmiyyətli layihə olduğunu sübut edir.

Təqdirədici məqamdır ki, Avropanı Asiya ilə birləşdirəcək dəhliz həm də Türk dünyasını bir araya gətirəcək. Bununla da TDT-nin həm siyasi, həm də iqtisadi nüfuzu xeyli güclənəcək. Azərbaycanın Naxçıvan üzərindən Türkiyə ilə kəsintisiz quru əlaqəsi yaranacaq ki, bu da iki ölkənin münasibətlərinə yeni iqtisadi, ticari dəyər qazandıracaq.

### *Naxçıvan üçün yeni səhifə açılır, tarixi missiya bərpa edilir*

Zəngəzur dəhlizinin gerçəkləşməsi ilə uzun illərdir, blokadada qalan Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafında yeni mərhələnin əsası qoyulacaq. Dəhlizin yerləşdiyi ərazidə nəqliyyat infrastrukturu yenilənəcək ki, bura həm avtomobil, həm də dəmiryolları daxildir. Prezident İlham Əliyevin ***"Naxçıvanla bağlı böyük planlarımız var"*** ideyası üzərindən nəhəng iqtisadi layihələr, o cümlədən də Azad İqtisadi Zona həyata vəsiqə qazanacaq, o cümlədən "Yaşıl Enerji Zonası" ilə bağlı təşəbbüslər tam şəkildə reallaşdırılacaq. Bütün bunların timsalında, sözsüz ki, Naxçıvan idxaldan daha çox ixrac edən regiona çevriləcək. Blokada dövründən fərqli olaraq özəl sektor üçün daha əlverişli imkanlar açılacaq, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafında yeni dönəm başlayacaq. Dəhliz böyük coğrafiyanı, yəni iki qitəni birləşdirdiyi üçün Naxçıvan ticarət mərkəzi olmaqla yanaşı, sivilizasiyalararası dialoq məkanına da çevriləcək. Buraya turist axını güclənəcək, turizm növləri geniş yayılacaq. Təbii ki, turizmin inkişafı otelçilikdə, xidmət sektorunda, kafe, restoran biznesində canlanma yaradacaq. Və beləliklə də sağlam biznes mühiti formalaşacaq ki, bu da yeni sahibkarlıq subyektlərini ortaya çıxaracaq.

Zəngəzur dəhlizi böyük güclərin marağının burada kəsişməsinə vəsilə olmaqla Naxçıvanın sabit, təhlükəsiz region funksiyasını özündə saxlayacağına təminat verəcək. Dünyada da qəbul olunan tendensiya budur ki, beynəlxalq sərmayədarlar, iri sahibkarlar, şirkətlər hər zaman sabitlik, əmin-amanlıq olan regiona yatırım yatırmaq, imkanları əlverişli olan ərazilərdə uzunmüddətli layihələr həyata keçirmək istəyir. Belə olan halda Zəngəzur dəhlizinin həm də bölgəyə yeni sərmayə axınına təkan verəcəyi fikrini söyləmək olar. Beləliklə, muxtar respublika iqtisadiyyatına həm yerli, həm də xarici sərmayələrin həcmi kifayət qədər artacaq ki, bu da, son nəticədə, yeni iş yerlərinin yaradılmasına, əhali məşğulluğunun artırılmasına xidmət edəcək. Dəhliz muxtar respublikada ailə biznesinə də təsirsiz ötüşməyəcək. Xüsusilə də buraya üz tutan xarici qonaqların, turistlərin böyük marağına səbəb olacaq bölgəyə xas məhsulların istehsalında kəskin artım müşahidə olunacaq ki, bu da kənd təsərrüfatı sahələrinə yeni dividentlər qazandıracaq.

Ümumi fikir odur ki, Zəngəzur dəhlizinin reallaşması Naxçıvanda inkişaf coğrafiyasını xeyli genişləndirəcək, həm sənaye, həm özəl biznes, həm kənd təsərrüfatı dirçəldiləcək, tarixi İpək Yolu funksiyasının yenidən icra edilməsi ticarət, logistika, turizm sektorlarında böyük canlanma yaradacaq. Mövcud zəngin tarixi-mədəni irsi, müalicəvi su ehtiyatları və ekoturizm potensialı, Prezidentin sərəncamlarına, sosial-iqtisadi inkişafa dair Dövlət Proqramına uyğun tarixi abidələrin bərpası Naxçıvana turist axınının daha da artmasına imkan verəcək. Bütün sadalanan amillərə, görülən və görüləcək işlərin mahiyyətinə əsaslanaraq əminliklə demək olar ki, Zəngəzur dəhlizinin reallaşması Naxçıvanı unikal tranzit bölgəsinə çevirəcək. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə yaxın gələcəkdə burada reallaşdırılacaq bütün təşəbbüs və layihələr təkcə muxtar respublikanın deyil, ümumilikdə, ölkənin sosial-iqtisadi inkişaf mənzərəsini zənginləşdirəcək, Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yeri daha da möhkəmlənəcək, qlobal nüfuzu xeyli güclənəcək.

**Nail ƏSGƏROV**

# Böyük Qayıdışın Xankəndi səhifəsi




***Azərbaycan dövlətinin Vətən müharibəsindən sonra qarşıya qoyduğu əsas vəzifələrdən biri işğaldan azad olunmuş torpaqlarda geniş quruculuq və abadlıq işlərinin aparılması, soydaşlarımızın mərhələli şəkildə öz yurdlarına qaytarılmasıdır. Bu xüsusda Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə qəbul olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" mühüm yol xəritəsi hesab edilir. Proqram çərçivəsində dayanıqlı məskunlaşma, infrastrukturun bərpası, təhlükəsiz yaşayış, ekoloji təmiz texnologiyalar və "yaşıl inkişaf" prinsiplərinin tətbiqi əsas məqsəd kimi qarşıya qoyulub. Bundan başqa, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək 5 milli prioritetindən biri kimi də müəyyən olunub ki, bu da dövlət siyasətində bu istiqamətdə görülən işlərə necə böyük diqqət göstərildiyini, önəm verildiyini təsdiqləyir. Ötən 5 ilə yaxın müddətdə respublikamızın heç bir beynəlxalq maliyyə qurumundan dəstək almadan Qarabağ və Şərqi Zəngəzurda uğurlu infrastruktur quruculuğu prosesini reallaşdırması, soydaşlarımız üçün yaşayış, iş, istirahət, sosial xidmət imkanlarının yaradılması sübut edir ki, Azərbaycan dövlətinin siyasi iradəsi dönməzdir, hazırlanan inkişaf konsepsiyası unikaldır, alternativsizdir...***



Prezident İlham Əliyevin işğaldan azad olunmuş bölgələrə hər səfəri yeni bir layihənin reallaşması və yaxud da hansısa şəhər, qəsəbə və kəndə soydaşlarımızın qayıdışı ilə əlamətdar olur. Ümumilikdə, son 5 ildə dövlət başçısı azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, 177 müxtəlif təyinatlı layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib. Və bu il dekabrın 23-də Prezidentin Qarabağa növbəti səfəri isə Böyük Qayıdışın yeni – Xankəndi səhifəsinin də yazılmağa başladığını göstərdi. Ölkə başçısının doğum günü ərəfəsində reallaşan bu səfər bütün cəhətləri ilə tarixidir, mühümdür. Bəli, bir vaxtlar ad gününü məcburi köçkünlərlə keçirən lider bu gün onların öz yurdlarına qayıdışını reallaşdırır, sakinlərlə birgə əlamətdar günün ikiqat sevincini, qürurunu yaşayır.

***34 illik həsrət sona yetir, Kərkicahana həyat qayıdır***

Qədim Azərbaycan torpağı olan Xankəndinin respublikamızın ictimai-siyasi, sosial-mədəni həyatında yeri və rolu tarixboyu mühüm, əvəzedilməz olub. 272 illik keşməkeşli tarixə malik bu şəhərimiz hər zaman mənfur ermənilərin işğalçılıq planlarında yer alıb. Birinci Qarabağ müharibəsi dövründə, daha dəqiq desək, 1991-ci il dekabrın 26-da Ermənistan silahlı qüvvələri və Qarabağdakı erməni separatçıları tərəfindən işğal edilmiş Xankəndi başdan-ayağa vandalizmin qurbanı olub, şəhərdə erməniləşmə siyasəti aparılıb. Şəhərin özündən və Kərkicahan qəsəbəsindən soydaşlarımız zorla didərgin salınıb. Uzun illər erməni separatizminin kök saldığı qədim yurd yerimizi 44 günlük Vətən müharibəsindən sonra da düşmən heç bir vəchlə azad etmək niyyətində deyildi. Ancaq Prezident İlham Əliyevin siyasi səriştəsi, məharətli diplomatiyası, eləcə də müzəffər Ordumuzun peşəkarlığı sayəsində 2023-cü il sentyabrın 19-20-də reallaşdırılan lokal xarakterli antiterror tədbirləri ilə Xankəndi şəhəri də tamamilə düşməndən azad olundu. Bu tarixi hadisədən iki ay sonra – noyabrın 8-də Vətən müharibəsində əldə edilən zəfərin üçüncü ildönümünə həsr olunan Hərbi Paradın məhz Xankəndi şəhərində təşkili bu torpağın Azərbaycan üçün necə böyük, strateji əhəmiyyət daşıdığını göstərdi. Paradda çıxışı zamanı Müzəffər Ali Baş Komandan bir daha qədim torpağımızın azadlığının ölkəmizin əsas məqsədlərindən biri olduğunu vurğuladı: ***"Qırx dörd günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki suallar, demək olar ki, təkrarlanırdı. Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər – sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz – həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün".*** Dekabrın 24-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Xankəndidə Zəfər parkının açılışı da məhz bu qədim şəhərin həm də müasir hərbi-siyasi tariximizdəki, eləcə də ərazi bütövlüyü və suverenliyimizin təminatındakı rolunun ifadəsidir.

Bəli, qısa zaman Azərbaycan xalqının Müzəffər Liderinin praqmatik düşüncəyə, uzaqgörən siyasətə malik olduğunu, ***"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm"*** ideyasının əməli təsdiqini göstərdi. Bir sözlə, "Lider xalqa, xalq liderə arxalanır" tandemi Qarabağın hər addımında, görülən hər işdə, reallaşan layihələrdə təcəlla edir, özünü göstərir. Və bu həmrəyliyin, birliyin nəticəsidir ki, 34 ildən sonra artıq Xankəndi öz soydaşlarına qucaq açır, kərkicahanlıların həsrəti, nisgili sona yetir. Sakinlərin öz lideri ilə söhbətində, hər jestdə, mimikada böyük xoşbəxtlik, sonsuz sevinc, fərəh hiss olunur, duyulur. Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşündə də bu qayıdışın tarixi əhəmiyyət daşıdığını, böyük xoşbəxtlik olduğunu dedi: ***"Siz isə uzun illər çətin şəraitdə, həm fiziki, həm mənəvi əzablar içində yaşamısınız. Artıq buna son qoyuldu və 34 ildən sonra doğma Kərkicahana qayıdırsınız. Böyük xoşbəxtlikdir, həm sizin üçün, həm də xalqımız üçün".***

***Böyük Qayıdış: Dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramı***

"Böyük Qayıdış" proqramına uyğun olaraq digər yaşayış məntəqələri kimi, Kərkicahanda da abadlıq-quruculuq işləri bütün sahələri əhatə edib, insanların yaşayış şəraitindən uşaq, yeniyetmə və gənclərin təhsilinin təşkilinə qədər hər bir məsələ həssaslıqla nəzərə alınıb. Təmir işlərinə bu ilin may ayında başlanılmış qəsəbədə hazırda 33 yaşayış binası və 1037 fərdi ev mövcuddur ki, onlardan 247-si yararsız, 790-ı isə qismən yararlıdır. Bu ilin sonunadək 40, 2026-cı ildə isə 280 evin təmiri nəzərdə tutulur. Artıq 30 evdə təmir işləri başa çatdırılıb, ilkin mərhələdə 30 ailə olmaqla, ümumilikdə, 115 sakin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlardan qəsəbəyə – öz dədə-baba yurdlarına qayıdıb. Xatırlatmaq yerinə düşər ki, 1991-ci ilin sonunda işğal olunan Kərkicahan 1992-ci ildə ermənilər tərəfindən yandırılıb. İşğaldan əvvəl qəsəbədə 355 ailə olmaqla, 1796 nəfər azərbaycanlı yaşayırdı. Hazırda isə qeydiyyatda 674 ailə olmaqla, ümumilikdə, 2531 sakin var. Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəb binasının əsaslı təmiri Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir təhsil infrastrukturunun yaradılmasının işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı yenidənqurma işlərinin vacib istiqamətlərindən biri olduğunu təsdiqləyir. Bu addım, eyni zamanda müəllimlərin və şagirdlərin doğma yurdlarına qayıdışını sürətləndirməklə Qarabağda sosial, ictimai mühitin formalaşmasına təkan verir.

Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə hər gedişi kimi, budəfəki səfəri də genişmiqyaslı quruculuq işlərinin, innovativ layihələrin reallaşması, istifadəyə verilməsi ilə yadda qaldı. Təməli qoyulan Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binası bu istiqamətdə təhsilin inkişafına mühüm töhfə verməklə yanaşı, müasir akademik məzmunun və innovativ tədris metodlarının tətbiqini təşviq edən, tələbələrin hərtərəfli inkişafını dəstəkləyən qabaqcıl ali təhsil mühitinin formalaşdırılmasına töhfə verəcək. Xocalı rayonunun Ballıca kəndində "Accurate Az", Ağdam Sənaye Parkında "Construction" MMC-lərin istehsal müəssisələrinin, Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hotelinin istifadəyə verilməsi, Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışı bölgəyə yeni həyatın qayıdışını, eləcə də qeyri-neft sənayesinin, turizmin inkişafını sürətləndirməklə paralel, əhali məşğulluğunun təminatına, yeni investiyaların axınına xidmət edəcək. Ümumilikdə, dövlət başçısının Qarabağa son səfəri belə deməyə əsas verir ki, Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərlə bağlı məqsədlərinə, hədəflərinə qətiyyətlə çatır, "Böyük Qayıdış" proqramı dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramı kimi özünü praktiki şəkildə təsdiq edir. Prezident İlham Əliyevin 34 ildən sonra öz ata-baba torpaqlarına qayıdan Kərkicahan qəsəbə sakinləri ilə görüşündə də dediyi kimi: ***"Doğma torpağa 34 ildən sonra qayıdışınız münasibətilə sizi təbrik edirəm. Şükür Allaha, torpaqlarımız işğalçılardan azad olundu və bütün keçmiş köçkünlər yavaş-yavaş öz dədə-baba torpaqlarına qayıdırlar, o cümlədən bu gün Kərkicahan qəsəbəsinə də keçmiş köçkünlər qayıdıb və bu qayıdış prosesi davam edir. Yəni "Böyük Qayıdış" proqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır".***

**"Şərq qapısı"**

# Xalqını sevən və xalqın sevdiyi

*Oxucu məktubları*



## Şəhid ailələri dövlətin qayğısı əhatəsindədir

***Salam, hörmətli redaksiya!***

Uzun illərdir ki, hamımızın ürəyində bir od yanırdı. Bir dərd daşıyırdıq hamımız: yurd həsrəti. Şükür Allaha ki, Tanrı haqqımızı haqq elan etdi. İllərdir, davam edən ədalətsizliyə son qoyuldu. İgid övladlarımız illərdir, qanayan yaramıza məlhəm oldular. Onlar öz canları bahasına alnımıza yazılan ləkəni sildilər. Qələbə çalıb başımızı uca etdilər. Anaları olan Vətənin dərdinə dərman olub bizim ürəyimizə qor saldılar. Elə bir qor ki, illər keçsə də, bu od sönən deyil. Vətən müharibəsi başlayandan bir neçə gün sonra – 19 oktyabrda oğlum Zülal Mədətli Şuşa istiqamətindəki döyüşlərdə şəhadətə yüksəlib əbədiyyətə qovuşdu. Həmin gündən dövlətimizin qayğıkeş əlini hər an çiynimizdə hiss etmişik. Övladımın şəhadətə qovuşub Vətən torpağına tapşırıldığı gündən bu günə kimi hər bir dövlət qurumu tərəfindən hörmət və ehtiram görmüşük. Ondan əmanət qalan iki övladı qayğı ilə əhatə olunub.

Həyat yoldaşı Şərur şəhərindəki yeni binada mənzillə təmin olunub. Bir sözlə, onu deyə bilərəm ki, ölkəmizin hər yerində olduğu kimi doğma diyarımızda da şəhid ailələri və qazilər əl üstündə tutulur. Onların qayğısına qalınır, qarşılaşa biləcəyimiz bütün çətinliklərə dövlətimiz sayəsində sinə gəririk.

Övladını itirmiş bir valideynin ürəyindəki dərdi heç nə sağalda bilməsə də, dövlətimizin qayğısı bizim dərdimizə məlhəm olur. Bizim – bütün şəhid ailələrinin bircə istəyi və bir təsəllisi var: əzizlərimizin xatirəsinə ehtiramla yanaşılır, onlar unudulmur. Buna doğma yurdumuzda şahid oluruq. Şəhidlərin ruhu isə onların arxada qoyub getdiyi ailəsi rahat olanda şad olur.

Qədim Azərbaycanın mərdlik qalası Naxçıvanda yaşayan hər bir şəhid ailəsi dövlətimizə, onun Müzəffər Ali Baş Komandanına minnətdardır.

**Şərəbanu MƏDƏTOVA**
***Şərur rayonu, Çomaxtur kəndi***

## Bu gün artıq deyilənlər təkcə ümid və arzu olaraq qalmır

***Qədim Naxçıvanın zəhmətkeş, mərd insanlarına salam olsun!***

Yaxın günlərdə Ordubad rayonunun Kotam kəndində dəmir yolunun yenidən qurulmasına başlanması xəbərini eşidəndə həm çox sevindim, həm də bir anlıq keçmişə qayıtdım. Həm ömrünün böyük bir qismini dəmir yollarına həsr edən biri, həm də Zəngəzurdan gələn sonuncu qatarın maşinisti kimi. Çətin günlər idi, düşmən yolu-izi kəsmişdi. Qatarların Bakıya gedib-gəlməyinin də qorxulu olduğu vaxtlardan birində yol tamam bağlandı. Elə həmin gündən sonra Salamməlik istiqamətinə qatarlar bir daha gəlmədi. Ordubadlılar fit səslərini, maşinistlərin tələsik addımlarını, relslər üzərində hərəkətin səsini, sərnişinlərin səs-küyünü bir daha eşitmədilər. Sonuncu qatar gecə saatlarında Salamməlik stansiyasında dayandı. Həmin gündən bizi 33 illik zaman ayırır. Beş il öncə igid oğullarımızın qazandığı zəfər bizə təkcə torpağımızı qaytarmadı, həm də bağlı qapıları açdı. Uzaq yolları yaxınlaşdırdı.

Artıq bir vaxtlar olduğu kimi, gediş-gəliş yenidən tez bir zamanda bərpa olunacaq, bu yollara olan həsrət sona yetəcək. Çox xoşbəxtəm ki, o yolları yenidən görəcəyəm... Bu gün artıq deyilənlər təkcə ümid və arzu olaraq qalmır. Zəngəzur istiqamətində ilkin işlərə başlanılıb, müvafiq infrastruktur layihələri mərhələli şəkildə icra olunur. Salamməlik stansiyası ərazisində tikinti işlərinə start verilməsi xəbəri hər kəs kimi məni də çox sevindirdi. Artıq bu arzumuz reallaşdı. Allah cənab Prezidentimizi qorusun!

**Tahir ABUZƏROV**
***Culfa şəhər sakini***

## Humanist dövlətdə yaşamaq ən böyük xoşbəxtlikdir

***Hörmətli redaksiya!***

Bu məktubu qəlbimdəki minnətdarlıq hissi ilə sizə ünvanlayıram. Tanrı bəzən insanı sınağa çəkir və bu dünyada mənim ən böyük sınağım övladımın etdiyi səhv oldu ki, o da bunu azadlıqdan məhrum edilməklə ödədi. Bir ana üçün ən böyük dərddir. Bu gün çox sevincliyəm ki, Prezident İlham Əliyevin amnistiya təşəbbüsü ilə övladım azadlığa qovuşdu. Bu hissi sözlə ifadə etmək mümkün deyil. Elə bil, dünyanın ən gözəl hədiyyəsini bəxş etdi mənə cənab Prezidentimiz. Allah Prezidentimizi qorusun!

Ölkə başçımız gözü yolda qalan analara sevinc bəxş etdi, bütün anaların duası onunladır. Bayram ərəfəsində ailəmizi sevindirdiyi, bizi doğmalarımıza qovuşdurduğu üçün dövlət başçısına minnətdarlığımı bildirirəm. Övladlarımızın azadlığa çıxması bizləri çox sevindirdi. Digər məhkumlara da azadlıq arzulayıram. Azadlığın qədrini bilib cinayətdən uzaq durmaq lazımdır. Azərbaycan Prezidentinə bir daha minnətdarlığımı bildirirəm ki, övladlarımızın ailələrinə qovuşmasını bizə nəsib etdi.

**Arzu SÜLEYMANOVA**

## Bu dəstək qarşıdan gələn yeni il üçün bir hədiyyə oldu övladlarımıza

***Hörmətli redaksiya!***

Diyarımızda ailələrin maddi və mənəvi tələbatlarının ödənilməsi, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi və məşğulluğunun təmin edilməsi istiqamətində görülən işlər davamlı xarakter alıb, bu da həmin ailələrə dövlət qayğısının ifadəsi olmaqla yanaşı, bu qəbildən olan insanların həyat şəraitinin yaxşılaşdırılmasında mühüm rol oynayır. Dövlətimizin dəstəyini hər zaman hiss edərək övladlarımızı böyüdür, onlara Vətənə sədaqətli olmağı təlqin edirik. İki oğul böyüyür, bizim ocaqda, gələcəyin iki əsgəri, Vətən keşikçisi. Onlar böyüdükcə dövlətin qayğısını hiss edir və öz dövlətinə minnətdarlıq hissi ilə gələcəyə baxır. Ölkə başçısının imzaladığı Sərəncamla aztəminatlı ailələrə birdəfəlik maddi yardım veriləcəyi xəbərini aldıq və çox sevindik. Bu dəstək qarşıdan gələn yeni il üçün bir hədiyyə oldu övladlarımıza. Ailəm adından göstərilən dəstəyə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Gülnarə SADİQOVA**
***Şərur rayonu, Şəhriyar kəndi***

## Sağlam bədəndə sağlam ruh olar

***Hörmətli redaksiya!***

Ölkəmizdə gənc və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkil edilməsi diqqət mərkəzində saxlanılır. Çünki yalnız fiziki cəhətdən sağlam gəncliklə dövlətin irəliləyişinə nail olmaq mümkündür. Gənclərin asudə vaxtının səmərəli keçirilməsi baxımından onların idmanla məşğul olmasının rolu əvəzsizdir. "Sağlam bədəndə sağlam ruh olar", – deyilib. Gənclərin fiziki inkişafına nail olmaq bütün dövlətlərin yürütdüyü siyasətdə prioritet faktor olaraq qalır. Fiziki inkişaf, sağlamlaşma ilə yanaşı, həm də gənclərin mənən formalaşmasına xidmət edir. Gənclər idman siyasətinin uğurla davam etdiyi ölkəmizdə bu sahədə bir çox işlər görülür. Ölkə başçısının imzaladığı Dövlət proqramlarında da bu sahənin inkişafı üçün yollar müəyyən edilir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ardıcıl şəkildə davam etdirilir. Dövlət Proqramının 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planına uyğun olaraq muxtar respublikanın rayon mərkəzlərində açıq hava idman qurğuları quraşdırılıb. Yaxın günlərdə Şərur şəhərinin Heydər Əliyev prospektində yerləşən iki ərazidə sadətipli açıq hava idman qurğuları sakinlərin istifadəsinə verilib. Uzun illərdir ki, şagirdlərə fiziki tərbiyə dərsini tədris edirəm və ölkəmizin bu sahədə gənclərə göstərdiyi qayğının şahidiyəm. Bu gün Azərbaycan gəncinin səsi dünya səviyyəli idman yarışlarından gəlir. Onlar beynəlxalq yarışlarda bayrağımızı dalğalandırıb, himnimizi səsləndirərək bizə qürur yaşadırlar. Bütün bunların əsasında isə dövlətin gənclərə göstərdiyi qayğı dayanır. Dövlətimizə və hər sahədə yanımızda olan ölkə başçısına minnətdarıq.

**Nəriman İSMAYILOV**
***Şərur şəhəri***

**“ Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm... ”**



# Mədəniyyət siyasətində dövlət konsepsiyası:

## Laçından Naxçıvana uzanan strateji xətt

***2025-ci ildə Laçın şəhərinin MDB-nin mədəniyyət paytaxtı elan edilməsi Azərbaycanın mədəniyyət siyasətində yeni və mühüm mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Bu qərar təkcə beynəlxalq mədəni platformada iştirak deyil, eyni zamanda işğaldan azad edilmiş ərazilərin mədəni dirçəlişinin dövlət səviyyəsində prioritet elan olunmasının bariz nümunəsidir. Laçının bu statusu qazanması Prezident İlham Əliyevin mədəniyyətə yalnız estetik və simvolik dəyər kimi deyil, strateji dövlət siyasətinin ayrılmaz hissəsi kimi yanaşmasının məntiqi nəticəsidir.***

Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mədəniyyət siyasəti ardıcıl, sistemli və ideoloji baxımdan bütövdür. Bu siyasətin mərkəzində milli-mənəvi irsin qorunması, tarixi yaddaşın bərpası və Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təqdimatı dayanır. Laçının mədəniyyət paytaxtı seçilməsi də məhz bu xəttin davamı olaraq Qarabağın və Şərqi Zəngəzurun təkcə coğrafi deyil, mədəni reabilitasiyasını təmin etməyə xidmət edir.

Prezidentin mədəni irslə bağlı siyasətinin mühüm istiqamətlərindən biri də Azərbaycan memarlıq məktəbinin dünya miqyasında tanıdılmasıdır. Bu baxımdan, Möminə xatun türbəsinin bərpası və dahi memar Əcəminin abidəsinin ucaldılması ilə bağlı imzalanmış sərəncamlar xüsusi əhəmiyyət daşıyır. Bu qərarlar təkcə tarixi abidələrin fiziki bərpası deyil, eyni zamanda milli memarlıq düşüncəsinin, estetik dünyagörüşünün və intellektual irsin yenidən cəmiyyətə qaytarılması deməkdir.

Möminə xatun türbəsi Azərbaycan memarlıq tarixinin zirvələrindən biridir. Onun bərpası Prezident İlham Əliyevin tarixi irsə münasibətindəki prinsipial mövqeyini, dəyərlərə sahib çıxmaq iradəsini açıq şəkildə nümayiş etdirir. Memar Əcəmi Naxçıvani isə yalnız bir dövrün deyil, bütövlükdə, Şərq memarlığının simvoludur. Onun xatirəsinin abidə ilə əbədiləşdirilməsi dövlətin mədəniyyətə münasibətində şəxsiyyət amilinə, yaradıcılıq irsinə və tarixi davamlılığa verdiyi önəmin göstəricisidir.

Laçın xətti ilə Naxçıvan xəttini birləşdirən əsas məqam Prezident İlham Əliyevin mədəniyyət siyasətində coğrafi bölgü aparmamasıdır. İstər işğaldan azad edilmiş Qarabağ torpaqları, istərsə də qədim Naxçıvan diyarı vahid mədəni strategiyanın tərkib hissəsi kimi dəyərləndirilir. Bu strategiya milli kimliyin möhkəmləndirilməsinə, tarixi yaddaşın qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Laçının MDB-nin mədəniyyət paytaxtı kimi təqdim edilməsi Azərbaycanın postmünaqişə dövründə mədəni diplomatiya alətlərindən səmərəli istifadə etdiyini də göstərir. Bu addım ölkənin regionda mədəni liderlik iddiasını gücləndirir, eyni zamanda Qarabağın sülh, mədəniyyət və əməkdaşlıq məkanı kimi təqdim olunmasına imkan yaradır.

Prezident İlham Əliyevin mədəniyyət sahəsində apardığı siyasət göstərir ki, mədəni irs yalnız keçmişin yadigarı deyil, bu günün ideoloji dayağı və gələcəyin strateji resursudur. Laçından Naxçıvana uzanan bu ardıcıl dövlət xətti Azərbaycanın mədəni suverenliyinin, tarixi davamlılığının və milli özünüdərk prosesinin mühüm təminatçısıdır.

**Ülviyyə HƏMZƏYEVA**
***Milli Məclisin deputatı***

# Ərazi bütövlüyümüzün və suverenliyimizin memarı

Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasını, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə “Konstitusiya və Suverenlik İli” elan edilmiş 2025-ci il ölkəmiz üçün çox əlamətdar hadisələrlə yaddaqalan oldu.

Ümummilli Lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk milli Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş və müstəqil dövlət quruculuğunun hüquqi əsaslarını təsbit etməklə ölkəmizin gələcək inkişaf konsepsiyasını müəyyənləşdirmişdir. Konstitusiyada təsbit olunan əsas prinsiplər – dövlət suverenliyi, ərazi bütövlüyü, hakimiyyətin xalqa məxsus olması, insan hüquq və azadlıqlarının qorunması ölkənin inkişaf strategiyasının əsas xəttini təşkil edir.

Lakin Konstitusiyamızda təsbit olunmuş prinsiplərin tam şəkildə həyata keçirilməsi Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində mümkün olmamışdır. Ölkə ərazisinin bir hissəsinin işğal altında qalması Konstitusiyanın suverenlik və ərazi bütövlüyü müddəalarının faktiki olaraq pozulması demək idi. Buna baxmayaraq, Azərbaycan dövləti heç vaxt bu vəziyyətlə barışmamış, beynəlxalq hüquq normalarına əsaslanaraq öz haqlı mövqeyini ardıcıl şəkildə müdafiə etmişdir.

2020-ci ildə 44 günlük Vətən müharibəsi bu mübarizənin kuliminasiya nöqtəsi oldu. Azərbaycan Ordusunun qazandığı şanlı qələbə nəticəsində işğal altındakı torpaqlar azad edildi, ölkənin suverenliyi faktiki olaraq tam təmin olundu. Bu zəfər nəticəsində Konstitusiyada təsbit edilmiş ərazi bütövlüyü və suverenlik tam bərpa edildi. Tarixi zəfər Azərbaycan Ordusunun gücünü, lider-xalq-ordu birliyinin sarsılmazlığını bütün dünyaya göstərdi.

2025-ci ilin Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilməsi dərin siyasi, hüquqi və tarixi məna daşıyır. Çünki 30 il dövlətimizin inkişafına xidmət edən Konstitusiyamız dövlətimizin hüquqi sütunu, Müzəffər Ali Baş Komandanın dəmir iradəsi, ordumuzun qəhrəmanlığı və xalqımızın birliyi ilə əldə etdiyimiz tarixi qələbə və suverenliyimiz isə dövlətimizin varlığının və davamlılığının qarantıdır. Bu mənada, Konstitusiya, suverenlik və tarixi zəfər bir-biri ilə sıx bağlıdır.

Azərbaycanın 30 illik inkişaf və tərəqqisinin hüquqi əsasını müəyyənləşdirən Konstitusiyamızın qəbul edilməsinin 30 illiyi və ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasının 5 illiyi ilə əlamətdar olan 2025-ci il həm də Vaşinqton görüşü, Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşü, III MDB Oyunları, Qars-Naxçıvan dəmir yolunun təməlinin qoyulması, Laçın şəhərinin 2025-ci il MDB-nin mədəniyyət paytaxtı olması, Qəbələ şəhərində Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə görüşü, müstəqillik tariximizin ən böyük Amnistiya aktı kimi hadisə və tədbirlər, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə regionda sülh və stabillik təşəbbüsləri, beynəlxalq diplomatiyada güclü aktivlik, daxili infrastruktur və sosial layihələr, elm, təhsil və texnologiya sahələrində irəliləyişlər və sosial islahatlarla Azərbaycan xalqı üçün daha da yaddaqalan oldu.

Bütün bunlar bir daha sübut edir ki, Konstitusiyaya əsaslanan idarəetmə, milli birlik və qətiyyətli siyasi iradə dövlətin suverenliyinin əsasını təşkil etməklə daha da işıqlı sabahların müjdəçisidir və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qazanılan bu uğurlar gələcək nəsillər üçün ən böyük mirasdır.

**Əjdər ƏLİYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

*Bu gün Azərbaycan həm regional, həm də beynəlxalq miqyasda əsl söz sahibi olan, etibarlı, strateji tərəfdaş və güclü dövlət kimi tanınır. Sona çatmaqda olan 2025-ci il də ölkəmizin ictimai-siyasi, eyni zamanda elmi-mədəni həyatında mühüm nailiyyətlərlə yadda qaldı, respublikamızın beynəlxalq nüfuzu xeyli gücləndi, müasir Azərbaycan dövlətçiliyinin parlaq, sistemli və strateji inkişaf xətti daha da möhkəmləndirildi. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində iştirakı, dərinməzmunlu və proqram xarakterli çıxışı respublika ictimaiyyətinin, elm adamlarının böyük marağına səbəb oldu. Prezident öz çıxışında bir çox vacib və əhəmiyyətli məsələlərdən bəhs etməklə yanaşı, elm adamlarının, tədqiqatçıların qarşısında çox vacib vəzifələr irəli sürdü. İlk növbədə, akademiyanın fəaliyyətinə qiymət verərək bildirdi:* ***“Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır. Bu illər ərzində biz müxtəlif ictimai-siyasi quruluşlarda yaşasaq da, Azərbaycan hər zaman öz elminin inkişafına böyük diqqət yetirirdi. Sirr deyil ki, Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi”.***




# Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz elmi-ictimai sahədə mühüm nailiyyətlər qazanır

Ümummilli Liderin elmə, akademiyaya göstərdiyi diqqət və qayğıdan bəhs edən Prezident İlham Əliyev müstəqillik illərində akademiyanın maddi-texniki bazasının genişləndirilməsi, akademiya şəhərciyinin yenidən qurulması, Azərbaycan elminin inkişafına göstərilən diqqətin Ulu Öndərin siyasətinə uyğun şəkildə aparıldığını qeyd etdi.

Torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ən böyük uğur kimi qeyd edilməlidir.

Prezident ölkəmizin qarşısında duran prioritetlərdən bəhs edərək texnoloji inkişafı, intellektual potensialın artırılması, süni intellektin inkişafı və tətbiqi, rəqəmsallaşmanın tətbiqi, kibertəhlükəsizlik və ölkəmizin qorunması, hərbi sənayenin inkişafı, bu sahədə özəl sektorun rolu, elmin iqtisadiyyatla, sənaye ilə sıx bağlı olması kimi məsələləri diqqətə çatdırırdı. Azad edilmiş torpaqlarda aparılan tikinti və quruculuq işləri, bərpa olunan enerjidən istifadə, geoloji kəşfiyyat işlərinə diqqətin artırılması qeyd olundu.

Prezidentin çıxışında Azərbaycan tarixinin tədqiqi və təbliği, azərbaycanlıların Ermənistana qayıtması, toponimlər və xəritələrlə bağlı alimlərin görəcəyi işlər və vəzifələr önə çəkildi. Azərbaycan dövlətinin tarixi, müstəqil Azərbaycanın tarixi haqqında da bir çox əsərlərin yazılmasına ehtiyac olduğunu tədqiqatçıların diqqətinə çatdırdı. Prezident İlham Əliyev demişdir: ***“Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır”.***

Prezident İlham Əliyev Azərbaycan dilinin saflığının qorunması, bu dilin 50 milyondan çox insanın ana dili olması, bəzi yerlərdə dilimizin məişət dili kimi istifadə olunması, ehtiyac olmadığı hallarda xarici kəlmələrə yer verilməsi kimi məsələlərə diqqət yetirmiş və bunlara ziyalıların, tədqiqatçıların, siyasətçilərin çox böyük diqqət vermələrini qeyd etmişdir.

Bütövlükdə, ölkə Prezidentinin qaldırdığı məsələlər cəmiyyətimizin hər bir üzvünü düşündürməli və problemlərin həlli üçün öz əməli fəaliyyətləri ilə bunların reallaşmasına xidmət göstərilməlidir.

Başa vurmaqda olduğumuz ildə həm də Türk Dövlətləri Təşkilatının daha da güclənməsi, regional və qlobal səviyyədə nüfuzlu platformaya çevrilməsi istiqamətində olduqca mütərəqqi addımlar atıldı. Ümumiyyətlə, 11 milyon kvadratkilometr ərazidə yerləşən və 200 milyondan artıq insanı birləşdirən Türk dünyasının birliyinin möhkəmləndirilməsi hazırda müəyyən qarşıdurmaların baş verdiyi bir şəraitdə günümüzün vacib və aktual məsələlərindən biridir.

Türk Dövlətləri Təşkilatı türkdilli ölkələrin dövlət başçılarının 2009-cu il oktyabr ayının 3-də Naxçıvanda keçirilən Zirvə görüşündə imzalanmış “Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması” haqqında sazişə əsasən təsis edilib. Təşkilat son 16 ildə böyük inkişaf yolu keçib. İllər öncə imzalanmış sazişə görə əsas məqsəd türk dövlətləri arasında qarşılıqlı dostluğun möhkəmləndirilməsi, regionda və ümumilikdə, dünyada sülhün qorunması, siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın edilməsi, bütün sahələrdə qarşılıqlı əlaqələrin və ölkələr arasında təmasların təşviqi və sairdir.

Bu dövrdə üzv dövlətlər şurasının məqsəd və prinsiplərinə uyğun olaraq əməkdaşlığın yeni-yeni formaları qurulur, TDT çərçivəsində üzv ölkələr arasında əlaqələr sürətlə genişlənir.

Türk dünyasının əməkdaşlığının və birliyinin möhkəmlənməsinə xüsusi əhəmiyyət verən Prezident İlham Əliyev çıxışlarının birində qeyd etmişdir ki, ***“Bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur”.***

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Qeyri-Hökumət Təşkilatlarının (QHT) həmrəylik forumunun ölkəmizdə keçirilməsi də təsadüfi deyil.

Noyabrın 24-də Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına müraciətində Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın əldə etdiyi qalibiyyətlər və uğurlar bu gün həm də Türk dünyasının sıx birliyinə, əməkdaşlığının daha da dərinləşməsinə zəmin yaradıb.

Tədbirdə Türk dünyası QHT-lərinin Platformasının yaradılması, humanitar fəaliyyətlərinin koordinasiyası, türk dili və ortaq mədəni irs layihələri, ortaq gənclik düşərgələri, diaspor əməkdaşlığı, rəqəmsal transformasiya və əlifba birliyi kimi mövzular ətraflı şəkildə müzakirə edilib. Əsas hədəf TDT ölkələri arasında həmrəyliyin artırılması, sosial, mədəni və humanitar istiqamətlərdə ortaq layihələrin inkişaf etdirilməsi, gənclik, təhsil, ətraf mühit, diaspor kimi sahələrdə birgə fəaliyyət planlarının hazırlanması və vətəndaş cəmiyyəti ilə diaspor şəbəkələrinin inteqrasiyasının gücləndirilməsidir.

Bakıda həmrəylik forumunun keçirilməsi, noyabrın 25-də isə Naxçıvan şəhərində keçirilən həmrəylik forumu çərçivəsində TDT-yə üzv və müşahidəçi ölkələrin qeyri-hökumət təşkilatlarını birləşdirən yeni platformanın təsis olunması da müstəsna tarixi hadisədir.

Qədim Naxçıvan torpağında TDT-yə üzv ölkələrin QHT-ləri ilk dəfə vahid platforma ilə çıxış etdi ki, bu da bütün Türk dünyasının fərəhli və tarixi günü olaraq yaddaşlara yazıldı.

Ümumilikdə, başa vurmaqda olduğumuz 2025-ci ili ölkəmizin həm elmi mühiti, həm də ictimai-siyasi tarixində mühüm nailiyyətlərin qazanılması ili kimi dəyərləndirmək olar. Əminliklə demək olar ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti və məharətli diplomatiyası növbəti illərdə respublikamızı bütün sahələr üzrə daha yüksək zirvələrə daşıyacaq.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***



# Müstəqillik tarixinin ən böyük amnistiyası

Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyev tərəfindən cəmiyyət və dövlət həyatının bütün sahələrində olduğu kimi, hüquqi sahədə də köklü islahatlar aparılmağa başlanıldı. Konstitusiyamızda insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edildi. İnsan hüquq və azadlıqlarının qorunması Ulu Öndərin qarşıya qoyduğu prioritet vəzifələrdən biri oldu. Ulu Öndər bildirirdi ki, ***"Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur".***

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il fevralın 10-da Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edir. Ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addımdır.

Azərbaycanda əfv və amnistiya təsisatları da Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə yaradılıb. Amnistiya və əfvetmə isə müstəqil dövlətimizin humanist siyasətinin davamlı təzahürüdür. Bu hüquqi prosedurun tətbiqi Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiyanın 65-ci maddəsinə əsasən məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır. Konstitusiyanın 109-cu maddəsinin 22-ci bəndinə görə, əfvetmə səlahiyyəti Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 19-cu bəndinə uyğun olaraq amnistiya məsələlərinin həlli isə Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aiddir. Həmçinin Azərbaycan Respublikasının Cinayət qanunvericiliyinə əsasən Amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Cinayət törətmiş şəxslər Amnistiya aktı ilə cinayət məsuliyyətindən azad edilə bilərlər. Cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə, yaxud onlara təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər və yaxud belə şəxslər əlavə cəzadan azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu götürülə bilər.

Əfvetmə isə fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Cinayət törətməyə görə məhkum olunmuş şəxs əfvetmə aktı ilə cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər.

Amnistiya və əfvetmə şəxsə bəraət qazandıran və cinayətin törədilməsi faktını aradan götürən hal deyil, barəsində tətbiq ediləcəyi şəxsə göstərilən humanizmin təzahürüdür. Hər iki institut humanizmə, insan amilinə mərhəmət hissi ilə verilən ali dəyərdir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə Milli Məclis tərəfindən 22 may 1996-cı il, 17 oktyabr 1997-ci il, 12 may 1998-ci il, 29 dekabr 1998-ci il, 10 dekabr 1999-cu il, 1 fevral 2001-ci il və 6 may 2003-cü il tarixlərdə qəbul edilən Amnistiya aktları, ümumilikdə, 77 mindən çox insana şamil edilib. Ümummilli Liderin imzaladığı əfv fərmanları ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilib.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin insan hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirdiyi tədbirlər beynəlxalq aləmdə də yüksək dəyərləndirilir. İmzalanan əfv sərəncamları ölkəmizdə insan hüquq və azadlıqlarının dövlətin diqqət mərkəzində saxladığı prioritet istiqamətlərdən birinə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Milli Məclis Zəfər Günü münasibətilə 2021-ci ildə amnistiya elan edilməsi haqqında qərar qəbul edib. Həmin Amnistiya aktı 17 min 267 şəxsə şamil olunub. Bu qərar tətbiq olunan şəxslərin sayına görə həmin ilə qədər qəbul edilmiş ən geniş amnistiya olub.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın irəli sürdüyü təşəbbüs nəticəsində 2007-ci il may ayının 8-də Milli Məclisdə Amnistiya aktı qəbul edilib. Konstitusiya dəyərləri və hüquqi islahatlar kontekstində qəbul edilən amnistiya, ümumilikdə, 9000 nəfərə şamil olunub.

Həmçinin Milli Məclis 2009-cu il martın 17-də Mehriban xanım Əliyeva tərəfindən təqdim edilən "Novruz bayramı ilə əlaqədar amnistiyanın elan olunması haqqında" Qanun layihəsini qəbul edib. Həmin akt 9 min məhbusa tətbiq olunub, 1700 məhbus azadlığa buraxılıb.

Birinci xanımın daha bir təşəbbüsü ilə milli həmrəyliyin gücləndirilməsi məqsədilə 2013-cü il 7 may tarixdə qəbul edilən qərarla 10 040 məhkum barəsində amnistiya tətbiq edilib. 2016-cı ildə yenə də Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 28 May – Respublika Günü münasibətilə elan edilmiş amnistiya qərarı, ümumilikdə, 10 868 nəfərə şamil olunub. 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə elan edilən amnistiya da ən əhatəli aktlardan biri olub. Bu aktdan 15 minə yaxın şəxs faydalanıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman insanpərvərlik qayəsindən çıxış edərək əfv sərəncamları imzalayıb. Ölkə Prezidentinin son 19 ildə imzaladığı 35 əfv sərəncamı, ümumilikdə, 5672 nəfərə tətbiq olunub, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş 4 Amnistiya aktı isə 40 mindən çox insanı əhatə edib.

Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisinin "Konstitusiya və Suverenlik İli" münasibətilə 19 dekabr 2025-ci il tarixdə elan etdiyi amnistiya müstəqillik tariximizin ən böyük amnistiyası hesab olunur. Bu amnistiya xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş milli Konstitusiyamızın 30 illiyi, Vətən müharibəsində qazandığımız tarixi və şanlı zəfərin 5-ci ildönümü münasibətilə elan edilib.

"Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarında qeyd olunur ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövlətinin qurulub möhkəmləndiyini, Ulu Öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının müasir dövlətçiliyimizin hüquqi təməlini yaratdığını dərin ehtiramla xatırlayaraq, Azərbaycan Respublikası Konstitusiyasının ümumbəşəri dəyərlərə əsaslanaraq müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, digər ölkələrlə dostluq, sülh və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ülvi niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası olduğunu xüsusi qeyd edərək, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsinin, Konstitusiyamızın ali qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu böyük qürur hissi ilə vurğulayaraq, suverenliyin bərpasının milli həmrəyliyimizi, dövlətçilik ideologiyamızı daha da möhkəmləndirdiyini, xalq-dövlət birliyinin sarsılmazlığını bütün dünyaya nümayiş etdirdiyini və gələcək nəsillər üçün əbədi örnək olduğunu fəxrlə bəyan edərək, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasının memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüsü dəstəkləyərək və Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, "Konstitusiya və Suverenlik İli" münasibətilə aşağıdakı amnistiyanın elan edilməsini qərara alır.

Bu amnistiya 5 noyabr 2021-ci il tarixdə elan olunmuş Zəfər amnistiyasının davamı olaraq ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam təmin edilməsindən sonra irəli sürülmüş ilk böyük təşəbbüsdür. Bu amnistiyanın tətbiq ediləcəyi şəxslərin dairəsi və sayı əvvəlkilərlə müqayisədə xeyli genişdir. Belə ki, amnistiya qərarı 16 kateqoriya üzrə şəxslərə, habelə 13 müxtəlif cəza növü üzrə cinayət törətmiş və ya qanun pozuntusuna yol vermiş vətəndaşlara şamil ediləcəkdir.

Amnistiya qərarından, ilk növbədə, Birinci və İkinci Qarabağ müharibələrinin, habelə 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirlərinin iştirakçılarının, şəhid ailələrinin və xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının faydalanacağı təqdirəlayiq haldır. Bu fakt bir daha təsdiq edir ki, Azərbaycan dövləti torpaqlarımızın azadlığı və suverenliyimizin təmin olunması uğrunda vuruşmuş, canlarını fəda etmiş qəhrəman övladlarını və onların ailələrini heç vaxt unutmur.

Bununla yanaşı, Ermənistandan deportasiya edilmiş soydaşlarımız, keçmiş məcburi köçkünlər, 20 Yanvar faciəsi və Xocalı soyqırımı nəticəsində əlil olmuş şəxslər, həlak olmuş və ya itkin düşmüş vətəndaşların yaxın qohumları da amnistiyanın tətbiqi dairəsinə daxil edilib. Eyni zamanda sosial həssas kateqoriyalara xüsusi diqqət yetirilib. Belə ki, qadınlar, 18 yaşına çatmamış yeniyetmələr, 60 yaşını tamam etmiş yaşlı şəxslər, əlilliyi olan vətəndaşlar, habelə öhdəsində azyaşlı uşaqları olan şəxslər də Prezident İlham Əliyevin humanist təşəbbüsündən faydalanmaq imkanı əldə ediblər.

Atılan bu humanist addımlar Azərbaycan dövlətinin siyasətində insan amilinə verilən yüksək dəyəri nümayiş etdirməklə yanaşı, hüquqi islahatların da zamanın tələbinə uyğun təkmilləşdirildiyini təsdiqləyir. Hər bir Amnistiya aktı bir daha dövlətimizin humanist siyasətinin növbəti təzahürünün göstəricisidir. Şübhəsiz ki, Amnistiya aktına əsasən cəzadan azad edilmiş şəxslər müasir Azərbaycan dövlətinin layiqli vətəndaşı olacaq, qanunlara hörmət ruhunda davranaraq Vətənə və xalqa sədaqətlə xidmət edəcəklər.

**Faiq SƏFƏROV**
*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi*

# Naxçıvanda "Suverenlik kuboku" uğrunda voleybol birinciliyi başa çatıb





Naxçıvan şəhərində Azərbaycan və Türkiyə komandalarının iştirakı ilə yeniyetmə oğlanlar və qızlar arasında "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Suverenlik kuboku" uğrunda voleybol birinciliyi başa çatıb.

Dekabrın 20-də Olimpiya İdman Kompleksində birinciliyin final görüşləri keçirilib. İlk üç yerə çıxan komandalar mükafatlandırılıb.

Oğlanlar arasında keçirilən birinciliyin qalibi olmuş "Gənc milli oğlanlar" komandasının üzvlərinə kubok və medalları Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, qızlar arasında birinciliyin qalibi olmuş "Gənc milli qızlar" komandasına kubok və medalları isə Azərbaycan Voleybol Federasiyasının prezidenti, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov təqdim ediblər.






# Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi Naxçıvan Muxtar Respublikasına səfər edib




Dekabrın 23-də Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayev Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayev Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.



# Naxçıvanda "Dövlət qurumları informasiya təhlükəsizliyi üzrə rəhbərlərinin VII Zirvə toplantısı" keçirilib



Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən dövlət qurumlarında informasiya təhlükəsizliyi sahəsində koordinasiyanın gücləndirilməsi, aktual risklərin və strateji yanaşmaların müzakirəsi məqsədilə "Dövlət qurumları informasiya təhlükəsizliyi üzrə rəhbərlərinin VII Zirvə toplantısı" təşkil olunub. Zirvə toplantısı Naxçıvan Muxtar Respublikasında keçirilib və tədbirdə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri və informasiya təhlükəsizliyi üzrə məsul rəhbər şəxslər iştirak ediblər.

Tədbiri salamlama nitqi ilə açan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov informasiya təhlükəsizliyinin dövlət idarəçiliyində artan rolunu vurğulayaraq qeyd edib ki, rəqəmsal mühitdə dövlət informasiya ehtiyatlarının qorunması milli təhlükəsizliyin mühüm tərkib hissəsidir. O bu sahədə sistemli yanaşmanın və institusional əməkdaşlığın əhəmiyyətini iştirakçıların diqqətinə çatdırıb.

Zirvə toplantısında açılış nitq ilə çıxış edən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayev bildirib ki, kibertəhdidlərin dinamik inkişafı informasiya təhlükəsizliyinə yanaşmada yeni metod və mexanizmlərin tətbiqini zəruri edir. Xidmət rəisi qeyd edib ki, dövlət qurumlarında informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində əsas hədəf qabaqlayıcı müdafiə prinsiplərinə əsaslanan, dayanıqlı və koordinasiyalı təhlükəsizlik mühitinin formalaşdırılmasıdır. İlqar Musayev bu sahədə vahid siyasətin, peşəkar kadr potensialının və müasir texnoloji həllərin əhəmiyyətini xüsusi vurğulayıb. Eləcə də İ.Musayev xidmət tərəfindən Naxçıvan Muxtar Respublikasında görülən işlər barədə ətraflı statistik məlumatlar verib.

Daha sonra Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Azər Məmmədrahimov çıxış edərək muxtar respublikada rəqəmsal transformasiya prosesləri ilə paralel olaraq informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlər barədə məlumat verib. O, dövlət qurumlarının informasiya sistemlərinin təhlükəsizlik tələblərinə uyğunlaşdırılmasının davamlı inkişaf üçün əsas şərtlərdən biri olduğunu qeyd edib.





Tədbirin davamında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin baş idarə rəisinin müavini Tural Məmmədov "Dövlət qurumlarında informasiya təhlükəsizliyinin mövcud vəziyyəti ilə bağlı statistik göstəricilər, Naxçıvan Muxtar Respublikasında görülmüş işlər, yeniliklər və planlar" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə dövlət informasiya resurslarının qorunması sahəsində cari vəziyyət, aşkar olunan əsas risklər, onların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər, eləcə də Naxçıvan Muxtar Respublikasında informasiya təhlükəsizliyi infrastrukturunun gücləndirilməsi üzrə atılmış addımlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Eyni zamanda qarşıdakı dövr üçün prioritet istiqamətlər təqdim olunub.

Daha sonra informasiya təhlükəsizliyi sahəsində mövcud çağırışlar, yeni texnoloji tendensiyalar və dövlət qurumlarının qarşılaşdığı problemlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edilib ki, bu formatda keçirilən zirvə toplantıları dövlət qurumları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə, vahid yanaşmaların formalaşdırılmasına və informasiya təhlükəsizliyi sahəsində dayanıqlı sistemin qurulmasına mühüm töhfə verir.

# Naxçıvanda YAP-ın təşkilatçılığı ilə ilin yekun tədbiri keçirilib




Dekabrın 24-də Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatı tərəfindən "Konstitusiya və Suverenlik İli" çərçivəsində fəaliyyətin yekunlarına, eləcə də 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramına həsr olunmuş tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tədbirdə iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tədbirdə çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası yaranan gündən etibarən milli maraqlara əsaslanan siyasəti, güclü dövlət idarəçiliyini, xalqla hakimiyyət birliyini və davamlı sosial-iqtisadi inkişafı əsas prinsip kimi qəbul edib. Bu ideyalar təkcə partiyanın deyil, bütövlükdə Azərbaycan dövlətinin inkişaf fəlsəfəsinə çevrilib. Bu gün "Konstitusiya və Suverenlik İli"nin qeyd olunması da məhz bu siyasi-fəlsəfi xəttin davamı kimi xüsusi məna daşıyır.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, Konstitusion dəyərlərin qorunması və dövlət suverenliyinin möhkəmləndirilməsi möhtərəm cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas prioritetlərindən biri olmaqla Yeni Azərbaycan Partiyasının fəaliyyətində də ideoloji əsas kimi çıxış edir. Partiyanın inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Onun partiya rəhbərliyində təmsil olunması Yeni Azərbaycan Partiyasının ictimai dayaqlarını möhkəmləndirib, humanist və müasir idarəçilik yanaşmalarını gücləndirib. Naxçıvan Muxtar Respublikasında da Yeni Azərbaycan Partiyasının üzvləri dövlət siyasətinin icrasında fəal iştirak edir, ictimai-siyasi sabitliyin qorunmasına və islahatların cəmiyyətə düzgün çatdırılmasına mühüm töhfə verirlər. Partiyaya artan maraq isə dövlətçilik dəyərlərinə sadiq, məsuliyyətli və milli maraqları üstün tutan yeni nəslin formalaşmasına xidmət edən sağlam ideoloji mühitin göstəricisidir.




Azərbaycan xalqının öz Prezidentini güclü dövlətçilik iradəsinin, qətiyyətli liderliyin və milli maraqlara sədaqətin simvolu kimi qəbul etdiyini və onun ətrafında sıx birləşdiyini bildirən Ceyhun Cəlilov xalqın etimadını qazanan Prezident İlham Əliyevi doğum günü münasibətilə səmimi-qəlbdən təbrik edib, ona möhkəm cansağlığı, uzun ömür və Azərbaycan dövlətinin inkişafı naminə şərəfli fəaliyyətində yeni uğurlar arzulayıb.

Səlahiyyətli nümayəndə, həmçinin tədbir iştirakçılarını qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, yeni nailiyyətlər arzulayıb.







Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli ilin yekunu, nailiyyətlər və qarşıda duran vəzifələrdən bəhs edərkən bildirib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda təsis edilən Yeni Azərbaycan Partiyası müstəqil dövlətçiliyimizin və ümummilli maraqların təmin edilməsi naminə cəmiyyətimizin bütün təbəqələrinin qüvvəsini səfərbər edən ən böyük siyasi partiyadır. Bu gün partiyanın 740 mindən artıq üzvü var. Naxçıvan Muxtar Respublikası üzrə bu say 58 mini ötür ki, onun da 18 min 600 nəfəri Naxçıvan şəhər sakinidir. Təşkilatın üzvlərinin 33 faizini gənclər təşkil edir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev qeyd edib ki, Yeni Azərbaycan Partiyası cənab Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ötən dövrdə daha da inkişaf edib, güclənib, nəinki ölkənin, hətta Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilib. Bu gücü, bu yeniliyi hər il inkişaf edən, çiçəklənən Naxçıvanın simasında da görmək mümkündür.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri, şəhid baş leytenant Amin Gülməmmədovun atası Mais Gülməmmədov çıxış edərək təbriklərini çatdırıb.

Tədbirin davamında fəal partiya üzvləri mükafatlandırılıblar.

Tədbir bədii hissə ilə davam edib.

Yeni Azərbaycan Partiyası himninin səsləndirilməsi ilə tədbirə yekun vurulub.






# Ali Məclisin 2025-ci il payız sessiyasının növbəti iclası keçirilib

Dekabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin doğum günüdür. Qeyd olunub ki, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən şanlı dövrünü yaşayır. Ölkəmiz dünyada söz sahibi olan dövlətə çevrilib. Sürətli və dinamik sosial-iqtisadi inkişaf, yüksək rifah, sabitlik və təhlükəsizlik Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edib. 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində tarixi torpaqlarımız olan Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoyulması ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib.









Vurğulanıb ki, bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən Böyük Qayıdış strategiyası, aparılan genişmiqyaslı quruculuq işləri, məskunlaşma Azərbaycan dövlətinin iqtisadi qüdrətinin daha bir göstəricisidir. Görülən işlərin tərkib hissəsi kimi reallaşan Zəngəzur dəhlizi Naxçıvan Muxtar Respublikasının ölkəmizin digər bölgələri ilə quru əlaqəsini təmin etməklə yanaşı, həm də muxtar respublikanın inkişafında yeni mərhələnin əsasını qoyacağı diqqətə çatdırılıb.

Ali Məclis sədrinin birinci müavini bildirib ki, sadalanan bu uğurlar ölkə Prezidenti cənab İlham Əliyevə böyük xalq sevgisi qazandırıb. Qürurverici haldır ki, vaxtilə doğum günlərində cəbhə bölgələrində olan Müzəffər Ali Baş Komandan artıq hər il doğum gününü işğaldan azad olunmuş torpaqlarda yeni sosial obyektlərin, inzibati binaların və istehsal sahələrinin istifadəyə verilməsi ilə, ən əsası isə abad şəhər və kəndlərdə məskunlaşan sakinlərlə birgə qeyd edir.

Bəxtiyar Məmmədov Prezident cənab İlham Əliyevi doğum günü münasibətilə Ali Məclis adından təbrik edib, dövlətimizin inkişafı, xalqımızın rifahının yüksəlməsi yolunda ali dövlətçilik fəaliyyətində uğurlar arzulayıb.

İclasda deputatlardan Arzu Abdullayev, Sevil Hacıyeva, Əli Həşimov və Asəf Orucov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi doğum günü münasibətilə təbrik edib, Ona ölkəmizin inkişafı naminə yorulmaz fəaliyyətində uğurlar arzulayıblar.

Sonra Ali Məclis sədrinin birinci müavini plenar iclasın gündəliyinə dörd məsələnin daxil edildiyini bildirib, gündəlik təsdiq olunub.

Gündəliyin birinci məsələsinin – "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi zamanı İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev qanun layihəsi barədə məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Qanun layihəsi ilə əlaqədar çıxış edən Ali Məclis sədrinin müavini Arzu Abdullayev "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Qanun layihəsini ölkəmizin iqtisadi reallıqlarına və büdcə qanunvericiliyinin tələblərinə cavab verdiyini bildirib, qanun layihəsini yüksək qiymətləndirib.

Sonra qanun üçüncü oxunuşda qəbul olunub.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək hökumət üzvləri adından ölkə başçısına doğum günü münasibətilə təbriklərini çatdırıb. Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən maliyyə intizamının gücləndirilməsi, şəffaflıq və dayanıqlı büdcə idarəçiliyi siyasəti nəticəsində həm mərkəzi, həm də yerli büdcələrin idarə olunması yeni keyfiyyət mərhələsinə qədəm qoyub. 2026-cı il üçün Naxçıvan Muxtar Respublikasının büdcə layihəsi də bu yanaşmanın tərkib hissəsi olmaqla sosial istiqamətlərin prioritetliyi və özünümaliyyələşdirmə potensialının genişləndirilməsi prinsiplərini əsas tutaraq hazırlanıb.

Gündəlikdəki ikinci məsələ – üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, qanun səsə qoyularaq qəbul olunub.

Gündəlikdə duran üçüncü məsələ – "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı bildirilib ki, qanun layihəsi Ali Məclisin 19 dekabr 2025-ci il tarixdə keçirilmiş plenar iclasında müzakirə edilmiş, söylənilmiş təkliflər nəzərə alınmaqla onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilib.

Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb, bundan sonra qanun ikinci oxunuşda qəbul edilib.

Sonda Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev Ali Məclisin 2026-cı il xərclər smetası haqqında məlumat verib.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin növbəti plenar iclası öz işini başa çatdırıb.

## "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci maddənin üçüncü və dördüncü abzaslarında "komissiyalarının" sözlərindən əvvəl "komitə və" sözləri əlavə edilsin.

2. 12-ci maddə üzrə:

2.1. birinci hissədə "Konstitusiyasına" sözü "Konstitusiyasının 20-ci maddəsinə" sözləri ilə əvəz edilsin;

2.2. üçüncü hissədə "Konstitusiyasında" sözü "Konstitusiyasının 20-ci maddəsində" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 24 dekabr 2025-ci il*

## Ali Məclisin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib

Dekabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.



Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və ikinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin müzakirəsinin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ ilə əlaqədar məlumat verilib, qanun layihəsinin Ali Məclisin plenar iclasında üçüncü oxunuşda müzakirəsinə təqdim olunması ilə bağlı qərar qəbul olunub.

İclasın gündəliyində olan ikinci məsələ – "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı komitə sədri qeyd edib ki, Ali Məclisin plenar iclasında qanun layihəsinə dair təklif bildirilib.

Deputat Kamil Şükürov qanun layihəsi barədə fikirlərini bildirib, Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdir müavini Tofiq Rəcəbli təkliflə əlaqədar layihədə aparılan dəyişikliyə dair məlumat verib.

Gündəlikdə duran məsələ ətrafında müzakirələr aparıldıqdan sonra qanun layihəsi ikinci oxunuşda Ali Məclisin plenar iclasında baxılması üçün təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda probasiya nəzarətində olan 95 şəxs amnistiyadan yararlanıb



Naxçıvan Muxtar Respublikasında Amnistiya aktının icrasının davamı olaraq probasiya nəzarətində olan 95 nəfər şəxs azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalardan azad edilib.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin İcra və probasiya xidmətinin əməkdaşları ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsinin rəisi, baş ədliyyə müşaviri İsfəndiyar Qasımov, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının İnsan hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə şöbəsinin baş məsləhətçisi Həsən Həsənov da iştirak ediblər.

Çıxışlar zamanı Amnistiya aktının əhəmiyyəti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu humanist addımının neçə-neçə ailəyə sevinc gətirdiyi, habelə məhkumlara normal həyata qayıtmaları üçün bir şans verildiyi vurğulanıb. Həmçinin qeyd olunub ki, cəzalardan azad olunan şəxslər bundan sonrakı davranışlarında qanunlara əməl etməli, cinayət törətməməli, göstərilən etimadı doğrultmalı, cəmiyyətə reinteqrasiya olunaraq əmək fəaliyyəti ilə məşğul olmalı, ailə və ictimai mühitdə məsuliyyətli davranışları ilə seçilməli, bir sözlə, Vətənə və cəmiyyətə layiqli vətəndaş olmalıdırlar.

Qərarın sevincini yaşayan məhkumlar dövlət başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirib, bundan sonra qanunlara dönmədən əməl edəcəklərinə, cəmiyyətin inkişafına töhfə verəcəklərinə söz veriblər.

# Görkəmli memar Əcəmi Naxçıvaninin 900 illik yubileyi

## UNESCO səviyyəsində qeyd ediləcək, Naxçıvan şəhərində abidəsi ucaldılacaq

***UNESCO-nun Baş Konfransının 7-22 noyabr 2023-cü ildə keçirilən 42-ci sessiyasında görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin 900 illik yubileyi 2024-2025-ci illər ərzində UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilmişdir. "Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 18 sentyabr tarixli Sərəncamı isə dahi sənətkara ölkə başçımız tərəfindən göstərilən böyük ehtiramın ifadəsidir. Məlumdur ki, Əcəmi Əbubəkr oğlu Naxçıvani Orta əsr Azərbaycan memarlığının ən möhtəşəm qollarından biri olan Naxçıvan memarlıq məktəbinin yaradıcısıdır. Ancaq zəmanəmizə qədər gəlib çatmış Orta əsr qaynaqlarında bu görkəmli memar haqqında əsaslı bir məlumat yoxdur. Ona görə də onun haqqında məlumatı biz özünün yaratdığı möhtəşəm abidələr və onların üzərindəki kitabələrdən alırıq. Bununla bağlı AMEA-nın müxbir üzvü, Naxçıvan Dövlət Universitetinin professoru Hacıfəxrəddin Səfərli ilə həmsöhbət olduq. O bildirdi ki, tarixin ən mötəbər qaynaqlarından sayılan epiqrafik abidələr – kitabələr Orta əsrlər zamanı Naxçıvan bölgəsində yaşayıb-yaratmış bir sıra görkəmli şəxsiyyətlərin adlarını zəmanəmizədək gətirib çıxarmışdır. Onlardan biri də Əcəmi Əbubəkr oğlu Naxçıvanidir.***



*– Azərbaycan, konkret olaraq Naxçıvan memarlıq məktəbi və Əcəmi Naxçıvani. İstərdik ki, bu barədə bir qədər ətraflı məlumat verəsiniz...*

– Bir sıra yerlərdə çoxlu memarlıq abidələri inşa etsə də, Əcəmi Naxçıvaninin yaratdığı abidələrdən zəmanəmizədək ancaq Naxçıvan şəhərində iki abidə – Yusif Küseyr oğlu və Möminə xatun türbələri gəlib çatmışdır. Memarlıq ədəbiyyatı materiallarında oxuyuruq ki, Naxçıvan şəhərində XIX yüzilliyə qədər qalıqları qalan başqa abidələr də, o cümlədən Atabəylər memarlıq kompleksinə daxil olan Qoşa minarəli baştağ və Came məscidi də bu görkəmli memarın yaradıcılığına məxsusdur. XII əsrdə Naxçıvan şəhərində yaradılan Atabəylər memarlıq kompleksinə daxil olan Eldənizlər sarayı (Dar ül-Mülk), Xanəgah və sair kimi inzibati və mülki binalar da XII əsrdə Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir. Hətta elmdə 1979-cu ildə Ordubad rayonundakı Orta əsr Xaraba Gilan yaşayış yerində təsadüfən aşkar olunan türbənin də Əcəmi Naxçıvani tərəfindən XII yüzilliyin 80-ci illərində inşa edilməsi haqqında fikir vardır. Naxçıvan şəhərinin cənub tərəfində, Möminə xatun türbəsindən, təxminən, 400-500 metr aşağıda yerləşən Nuh Peyğəmbərin qəbirüstü türbəsinin ətrafından aşkar edilən kitabə fraqmentlərinin, abidələrin inşasında istifadə olunan inşaat materiallarının, yan üzlərin bəzədilməsində gördüyümüz ornament-naxışların, kaşı nümunələrinin oxşarlığına, əsasən, ehtimal etmək mümkündür ki, bu türbə də Naxçıvan memarlıq məktəbinə məxsusdur və bu məktəbin çiçəklənmə dövrü keçirdiyi XII yüzilliyin ortalarında Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Yusif Küseyr oğlu türbəsindən az sonra tikilmişdir.

Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində ərsəyə gətirdiyi abidələrdən bir neçəsinin, o cümlədən Yusif Küseyr oğlu və Möminə xatun türbələrinin və qoşa minarəli baştağın kitabələri XIX yüzilliyin ortalarından etibarən tədqiq olunmuşdur. Bu tədqiqatların nəticəsi kimi həmin abidələrin təyinatı, sifarişçisi, inşa tarixi və memarı haqqında məlumatlar elmi dövriyyəyə daxil edilmişdir. Beləliklə, bu kitabələrin təqdim etdiyi məlumatlar əsasında görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin adı elmi ictimaiyyətə məlum olmuşdur.

*– Əcəmi Əbubəkr oğlu Naxçıvani yaratdığı dünyaşöhrətli abidələrdən Yusif Küseyr oğlu türbəsinin üzərində imzasını "Bənna Əcəmi Əbubəkr oğlu Nəşəvinin əməlidir", Möminə xatun türbəsinin üzərində isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" şəklində təqdim etmişdir. Bu məsələyə münasibətinizi bilmək istərdik...*

– Kitabəsindən göründüyü kimi, memar Əcəmi Əbubəkr oğlu Naxçıvani ilk yaradıcılıq məhsulu olan Yusif Küseyr oğlu türbəsinin üzərində özünü "Nəşəvi" nisbəsi (doğulduğu və ya yaşadığı yerin adı) ilə təqdim etmişdir. Nəşəva, Nəşəvi Orta əsrlər zamanı Naxçıvan şəhərinin adlarından biri olmuşdur. Orta əsr ərəb coğrafiyaşünası Yaqut əl-Həməvi Yusif Küseyr oğlu türbəsinin inşasından az bir müddət sonra, XIII əsrin əvvəllərində qələmə aldığı "Mücəm əl-Buldən" ("Ölkələrin əlifba sırası ilə sıralanması") əsərində Naxçıvan şəhəri haqqında iki dəfə bəhs edir. O, Naxçıvan şəhərinin adını birinci dəfə Naxcuvan, Nakcuvan, ikinci dəfə isə Nəşəva kimi qeyd etmişdir. XII əsrdə olduğu kimi şəhər XIII əsrin əvvəllərində də Nəşəva, bununla belə həm də Naxcuvan, Nakcuvan kimi də adlanmışdır. Məhz bu səbəbdəndir ki, memar Əcəmi Əbubəkr oğlu Naxçıvani Yusif Küseyr oğlu türbəsindən 24 il sonra, 1186-cı ildə inşasını başa çatdırdığı Möminə xatun türbəsinin kitabəsində özünü "Naxçıvani" nisbəsi ilə təqdim etmişdir.

Naxçıvan şəhəri Azərbaycanın mühüm elm, təhsil və mədəniyyət mərkəzlərindən biri kimi, 1136-cı ildə tarix səhnəsinə çıxan Azərbaycan Atabəyləri dövlətinin paytaxtlarından birinə çevrilmişdi. Əcəmi Naxçıvani belə bir mühitdə Naxçıvan şəhərində doğulmuşdur. Təəssüf ki, görkəmli memarın anadan olduğu və vəfat etdiyi tarix dəqiq məlum deyildir. Orta əsr qaynaqlarında da bu haqda elə bir məlumat yoxdur.

*– Siz necə düşünürsünüz?*

– Memarın doğum və ölüm tarixi haqqında ancaq onun yaratdığı abidələr əsasında müəyyən mülahizələr yürütmək, bu tarixləri təxmini də olsa müəyyən etmək olar.

Qeyd olunduğu kimi, Əcəmi Naxçıvaninin zəmanəmizədək gəlib çatan abidələrindən Yusif Küseyr oğlu türbəsinin inşası 1162-ci ildə, Möminə xatun türbəsinin inşası isə 1186-cı ildə başa çatmışdır. Əzəməti, möhtəşəmliyi, naxışlarının və kitabələrinin mükəmməlliyi ilə Möminə xatun türbəsi Yusif Küseyr oğlu türbəsini geridə qoyur. Bu da təbii bir haldır. Çünki inşa tarixlərindən də göründüyü kimi Yusif Küseyr oğlu türbəsini memar nisbətən gənc və ya cavan yaşlarında inşa etmişdir. Möminə xatun türbəsini isə ondan bir neçə il sonra, yaşının və sənətinin kamillik çağında ucaltmışdır. Fikrimizcə, Yusif Küseyr oğlu türbəsini inşa edərkən memar 30-35 yaşlarında, Möminə xatun türbəsini tamamlayarkən isə 55-60 yaşlarında olmuşdur. Bu iki türbənin inşa tarixlərini əsas götürərək Əcəmi Naxçıvaninin doğum tarixini, təxminən, XII yüzilliyin 20-ci illərinə aid etmək olar. Görünür, UNESCO-nun Baş Konfransının 42-ci sessiyasında Əcəmi Naxçıvaninin 900 illik yubileyinin UNESCO çərçivəsində 2024-2025-ci illər ərzində qeyd olunacaq yubileylər siyahısına daxil edilməsi haqqında qərar qəbul edilərkən də bu amillər əsas götürülmüşdür.

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin təvəllüd tarixi kimi, vəfat tarixi də dəqiq bilinmir. Fikrimizcə, 1186-cı ildə Möminə xatun türbəsini, bundan az sonra onun yaxınlığında Came məscidi kimi daha möhtəşəm bir abidəni inşa edən Əcəmi Naxçıvani qeyd olunduğu kimi, həmin vaxt sənətinin və yaşının kamillik dövrünü yaşamışdır. İnsanın, xüsusilə kişilərin orta ömrünün 70-75 il olduğunu nəzərə alaraq böyük memarın XII yüzilliyin sonlarında vəfat etdiyini ehtimal etmək olar.

Dünyasını dəyişdikdən sonrakı dövrlərdə Əcəmi Naxçıvani yaradıcılığının və onun yaratdığı məktəbin təsiri ilə çox geniş bir ərazidə möhtəşəm memarlıq abidələri yaradılmışdır. Bu memarlıq məktəbinin təsiri elə Naxçıvan bölgəsində indiyədək qalan, bəlkə də, Əcəmi Naxçıvaninin özü tərəfindən inşa edilmiş Gülüstan türbəsində (XII-XIII əsr), Qarabağlar memarlıq kompleksində (XII-XIV yüzillik), Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani tərəfindən inşa edilmiş Bərdə türbəsində (1322-ci il), Cənubi Azərbaycanın Marağa şəhərindəki Göy günbəzdə (1196-cı il), Səlmas türbəsində (XIV əsr) və digər abidələrdə aydın şəkildə izlənir.

*– Naxçıvan memarlıq məktəbinin təsir coğrafiyası çox genişdir. Azərbaycan hüdudlarını aşıb keçən bu coğrafiya Yaxın və Orta Şərq ölkələrini də əhatə etmişdir. Bu baxımdan, sizin fikirləriniz də maraqlı olardı...*

– Bu ölkələrdə yetişən bir sıra görkəmli memarlar öz yaradıcılıqlarında Azərbaycan memarlığının Naxçıvan məktəbində Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tətbiq olunan bir sıra memarlıq ünsürlərindən geniş şəkildə istifadə etmişlər. Orta Asiyada, xüsusilə Səmərqənd şəhərində inşa edilən memarlıq nümunələrində də Əcəmi Naxçıvani sənətkarlığının izlərinə rast gəlinir. Çünki bilindiyi kimi, Orta Asiya fatehi Əmir Teymur tutduğu ərazilərdə fəaliyyət göstərən görkəmli sənətkarların hamısını əsir götürərək paytaxt Səmərqəndə aparırdı. Həmin sənətkarlardan Səmərqənddə möhtəşəm memarlıq abidələrinin inşasında istifadə olunurdu. 1387-ci ildə Naxçıvanı tutduqdan sonra buradan da yerli sənətkarlar, o cümlədən memarlar Səmərqəndə köçürülmüş və onlar paytaxtın abadlaşdırılmasında iştirak etmişlər. Ona görə də bu abidələrdə Naxçıvan memarlıq məktəbinə məxsus xüsusiyyətlər öz əksini tapmışdır.

Uzun müddət Səfəvilər dövlətinin paytaxtı olmuş İsfahan şəhərinin memarlıq abidələrində, XVI yüzillikdə yaşamış məşhur türk memarı Sinanın İstanbulda inşa etdiyi abidələrdə də Əcəmi Naxçıvani yaradıcılığının təsiri özünü aydın şəkildə göstərir.

Sinan yaradıcılığında Əcəmi Naxçıvani yaradıcılığının belə qabarıq şəkildə əks olunması isə heç də təsadüfi deyildir. Memar Sinan gənclik



vaxtlarında mühəndis kimi Osmanlı ordusunda xidmət edərkən Sultan Süleyman Qanuninin 1535-ci ildə Azərbaycana yürüşü zamanı ordu ilə birlikdə Naxçıvana gəlmiş, Naxçıvan şəhərində Əcəmi Naxçıvani yadigarlarını görmüşdür. Memar Sinan Naxçıvanda olarkən Əcəmi Naxçıvani yadigarlarından indiyədək qalan Yusif Küseyr oğlu və Möminə xatun türbələri ilə yanaşı, həmin vaxt salamat vəziyyətdə olan qoşa minarəli baştağı, Came məscidi və digər abidələri də seyr etmişdir. Bu abidələr onun yaddaşında böyük təsir buraxmışdı. Həmin təsir bütün yaradıcılığı boyu görkəmli memarı izləmiş, yaratdığı abidələrdə özünü göstərmişdir.

Onun yaradıcılığını təhlil edərkən belə bir qənaətə gəlmək olur ki, o dövrünün görkəmli memarı olmaqla bərabər, həm də zəmanəsinin bir sıra elmi biliklərinə, xüsusilə həndəsə, riyaziyyat, astronomiya və s. dünyəvi və dini elmlərinə dərindən yiyələnmiş, hərtərəfli inkişaf etmiş şəxsiyyət, böyük bir filosof olmuşdur. Təsadüfi deyildir ki, başqa həmkarlarından daha çox üstünlüklərə və elmi biliklərə malik olduğu üçün Əcəmi Naxçıvani müasirləri tərəfindən "Şeyxül-Mühəndisin" ("Mühəndislərin başçısı", "Mühəndislərin şeyxi") kimi dəyərləndirilmişdir.

*– Əcəmi Əbubəkr oğlu Naxçıvani inşa etdiyi abidələr üzərində yazdığı kitabələrdə özünü "bənna" kimi təqdim etmişdir. XI-XIII əsrlərdə Azərbaycan memarlığında, xüsusilə onun Naxçıvan məktəbində "bənna" titulu daha üstün və məna tutumuna görə, daha genişmiqyaslı olmuşdur.*

– Tədqiqatçılar yazırlar ki, XII əsrin memarlıq tarixi onunla yanaşı dayana biləcək digər bir layiqli memar tanımır. Yaratdığı möhtəşəm memarlıq nümunələrinə, əsasən, mübaliğəsiz, demək olar ki, müsəlman intibahı dövründə – XII əsrdə Gəncə şəhərində Nizami, Naxçıvan şəhərində isə Əcəmi Naxçıvani kimi dahi şəxsiyyətlər yetişmiş, yaşamış və fəaliyyət göstərmişdir. Fikrimizcə, Nizami Gəncəvi ədəbiyyatda hansı zirvəyə yüksəlmişsə, Əcəmi Naxçıvani memarlıqda həmin zirvəni fəth etmişdir.

*– 2026-cı il ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bir ziyalı kimi imzalanan bu Sərəncama münasibətinizi bilmək istərdik.*

– Prezident İlham Əliyevin 2026-cı ili ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan etməsi olduqca mühüm bir qərardır. Sərəncamda da haqqında bəhs etdiyimiz qüdrətli sənətkar Əcəmi Naxçıvaninin yaradıcılığı yüksək qiymətləndirilmiş, dövrün memarlıq məktəbinin ən yüksək zirvəsi adlandırılmışdır. Bu gün dövlət tərəfindən mühafizə olunan abidələr, məscid və karvansaralar milli memarlığı özündə ehtiva edir. Bədii-memarlıq həllinin kamilliyi baxımından Naxçıvanda qorunan Möminə xatun, Gülüstan türbələri, Qarabağlar türbə kompleksi və sadalamadığımız onlarla abidələr Azərbaycan memarlığının nadir incilərindəndir. Milli ənənələrdən yaradıcı şəkildə istifadə olunması sənətkarlar tərəfindən hər zaman diqqətdə saxlanılıb. Hər bir ölkənin özünəməxsus şəhərsalma və memarlıq ənənələri vardır. Köklü memarlıq ənənələrinə malik olan ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunması mütəxəssislər, memarlar, urbanistlər və gənc yaradıcılar üçün yeni imkanlar ili olacaq. Bu çərçivədə elmi müzakirələrin, beynəlxalq forumların, sərgilərin, müsabiqələrin və maarifləndirici layihələrin keçirilməsi gözlənilir. Bu isə həmin sahədə peşəkar mühitin güclənməsinə, dünya təcrübəsinin öyrənilməsinə və milli memarlıq düşüncəsinin beynəlxalq miqyasda tanıdılmasına xidmət edəcək.

*– Müsahibəyə görə sağ olun.*

**Söhbətləşdi: Muxtar MƏMMƏDOV**

# "Şəhərsalma və Memarlıq İli" Azərbaycanda şəhər mühitinin daha planlı şəkildə formalaşmasına töhfə verəcək

*Azərbaycan Respublikasında 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il 22 dekabr tarixdə Sərəncam imzalayıb.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əziz Qasımov Sərəncamla bağlı "Şərq qapısı"na açıqlamasında bildirib ki, Azərbaycanın çoxəsrlik şəhərsalma və memarlıq ənənələrinin dövlət səviyyəsində qiymətləndirilməsi və gələcəyə yönəlik inkişafının prioritet elan edilməsi böyük əhəmiyyət daşıyır: "Bu qərar, ümumilikdə, ölkə miqyasında olduğu kimi, qədim şəhərsalma mədəniyyətinə malik Naxçıvan üçün də xüsusi əhəmiyyət daşıyır. Minilliklər boyu formalaşmış Naxçıvan memarlıq məktəbi Azərbaycan şəhərsalma tarixinin ən parlaq səhifələrindən biridir. Azərbaycan şəhərsalma mədəniyyəti, memarlıq üslubları və tarixi abidələri xalqımızın dünyagörüşünü, estetik zövqünü və yaradıcılıq potensialını əks etdirən canlı tarixdir. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində bu zəngin irsin cəmiyyətə daha dərindən təqdim olunması, gənc nəsildə milli memarlıq məktəbinə marağın artırılması və peşəkar mühitdə yeni ideyaların təşviqi üçün geniş imkanlar açılır. Eyni zamanda bu il müasir urbanizasiya prosesləri, dayanıqlı inkişaf, "yaşıl şəhər" konsepsiyaları və innovativ memarlıq həllərinin tətbiqi baxımından da mühüm hadisələrlə yadda qalacaq. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma layihələri, Şuşanın tarixi simasının dirçəldilməsi və regionlarda müasir yaşayış məkanlarının yaradılması Azərbaycanın şəhərsalma sahəsində mütərəqqi yanaşmasının bariz nümunəsidir. "Şəhərsalma və Memarlıq İli" milli kimliyimizin mühüm tərkib hissəsi olan memarlıq irsi ilə müasir inkişaf hədəflərinin vəhdətini təmin etməklə Azərbaycanın şəhər mühitinin daha planlı, estetik və insan mərkəzli şəkildə formalaşmasına töhfə verəcək. Bu tarixi əhəmiyyətli qərar ölkəmizin həm regionda, həm də beynəlxalq miqyasda dayanıqlı şəhərsalma sahəsində artan nüfuzunu bir daha nümayiş etdirir".



Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şəhərsalma və memarlıq şöbəsinin müdiri Şəfəq Cəfərova bu Sərəncamın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəhərsalma və memarlıq sahəsinə göstərilən ardıcıl diqqət və qayğısının bariz ifadəsi olduğunu qeyd edib: "Bu qərar yalnız memarlıq irsinin qorunmasına deyil, eyni zamanda müasir şəhər mühitinin elmi əsaslarla formalaşdırılmasına yönəlmiş strateji yanaşmanı əks etdirir. Prezident tərəfindən qəbul edilən bu mühüm qərar şəhərsalma fəaliyyətində milli dəyərlərin qorunması ilə müasir urbanistik prinsiplərin uzlaşdırılmasını, dayanıqlı inkişaf, funksional planlaşdırma və estetik bütövlük anlayışlarının praktik tətbiqini təşviq edir. Şəhər məkanının insan amilinə xidmət etməsi, tarixi irsin mühafizəsi və müasir memarlıq tələblərinin balanslaşdırılması bu siyasətin əsas prioritetlərindəndir".

Şəfəq Cəfərova vurğulayıb ki, zəngin və özünəməxsus memarlıq ənənələrinə malik Naxçıvan Muxtar Respublikasında da bu yanaşma xüsusilə aktualdır. Möminə xatun türbəsi, qədim yaşayış məskənləri və formalaşmış şəhər mühiti Naxçıvan memarlığının dərin tarixi köklərə söykəndiyini nümayiş etdirir. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Naxçıvanda aparılan və aparılacaq planlaşdırma və bərpa işləri tarixi-memarlıq irsinin qorunması ilə müasir şəhərsalma baxışının ahəngdar vəhdətinə xidmət edəcəkdir.

## Elm və musiqi eyni səhnədə

Naxçıvan Dövlət Universitetinin dəvəti və təşkilatçılığı ilə dünyaca məşhur türkiyəli astrofizik alim Umut Yıldız Naxçıvana gəlib. Umut Yıldız Naxçıvandakı Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin ifasında səsləndirilən "Kosmosun səsi" adlı konsert proqramı fonunda səhnədən planetlər və kainat haqqında elmi biliklərini bölüşüb.




Elm və incəsənətin vəhdətini əks etdirən konsert Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin ifasında təqdim edilib. Konsertin bədii rəhbəri və dirijoru Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, universitetin müəllimi Səməd Əsgərov olub.

Konsert proqramının musiqi hissəsinin əsasını görkəmli ingilis bəstəkarı Qustav Holstun "Planetlər" silsiləsi təşkil edib. Proqram çərçivəsində "Mars – müharibə gətirən", "Venera – sülh gətirən", "Merkuri – qanadlı elçi", "Yupiter – şadlıq gətirən", "Saturn – qocalıq gətirən", "Uran – sehrbaz" və "Neptun – mistik" əsərləri səsləndirilib.

Astrofizik alim Umut Yıldızın təqdimatı ilə keçirilən konsertdə musiqi və kosmik mövzular bir araya gətirilib, dinləyicilərə simfonik musiqinin müşayiəti ilə kainata həsr olunmuş bədii-kompozisiya təqdim edilib. Tədbir iştirakçıları kosmosun az tanınan tərəfləri ilə bağlı elmi izahları dinləyib və real təcrübələrə əsaslanan maraqlı məlumatlar əldə ediblər.

"Kosmosun səsi" adlı konsert proqramı elmi biliklərin musiqi dili vasitəsilə geniş auditoriyaya çatdırılmasını, xüsusilə gənclərdə elmə və klassik musiqiyə marağın artırılması ilə yadda qalıb. Tədbir Naxçıvanın mədəni həyatında yaddaqalan hadisə kimi qiymətləndirilib.

Tədbirin sonunda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev çıxış edərək xüsusi əhəmiyyət kəsb edən tədbiri elm və mədəniyyətin vəhdəti kimi qiymətləndirib. Muxtar respublika sakinləri üçün belə tədbirlərin intellektual və mədəni inkişaf baxımından önəmini vurğulayıb. Cabbar Musayev tədbirin təşkilində əməyi olanlara – NDU-nun rektoru Elbrus İsayevə, NDU-nun Simfonik Orkestrinə və Umut Yıldıza xüsusi təşəkkür edib.

Daha sonra Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək Umut Yıldızın ilk dəfə Naxçıvana səfərini əlamətdar hadisə kimi qiymətləndirib. Rektor bu kimi görüşlərin tələbələrin dünyagörüşünün genişlənməsinə və araşdırmaya marağın formalaşmasına mühüm töhfə verdiyini vurğulayıb. Elbrus İsayev universitetin Simfonik Orkestrinin çıxışını yüksək dəyərləndirib və Umut Yıldıza dəyərli bilik və təcrübələrini Naxçıvan ictimaiyyəti ilə bölüşdüyünə görə təşəkkür edib.

Sonda xatirə fotosu çəkdirilib.

Qeyd edək ki, Umut Yıldız Ankara Universitetinin Astronomiya və Kosmos elmləri ixtisası üzrə ali təhsil alıb, Hollandiyanın Groningen Universitetində magistratura, Leiden Universitetinin Leiden Observatoriyasında isə doktorantura təhsilini başa vurub. Alim uzun illər NASA-nın Reaktiv Sürət Laboratoriyasında çalışıb, hazırda Orta Doğu Texniki Universitetində fəaliyyət göstərir.

## Şərur rayonunda yeni avtomat meteoroloji stansiya quraşdırılıb



Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin dəstəyilə Dövlət investisiya layihəsi çərçivəsində Şərur rayonunda avtomat meteoroloji stansiya quraşdırılıb. Avtomat stansiyanın quraşdırılmasında əsas məqsəd hidrometeoroloji müşahidələrin operativliyi və fasiləsizliyini təmin etməkdən ibarətdir.

Avtomat stansiyanın təchiz olunduğu müasir sensorlar vasitəsilə havanın faktiki vəziyyəti, küləyin sürət və istiqaməti, havanın temperaturu, atmosfer təzyiqi, rütubətlilik, yağıntının miqdarı və intensivliyi, qar örtüyünün hündürlüyü haqqında fasiləsiz olaraq əldə olunan müşahidə məlumatları Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hidrometeorologiya Mərkəzi tərəfindən Regional Ekologiya İnformasiya Sisteminə (REİS) inteqrasiya edilir.

Bu məlumatlar meteo.az saytında və mobil tətbiqində öz əksini tapır.

Qeyd edək ki, son illərdə bütün dünyada olduğu kimi, ölkə ərazisində də təhlükəli hidrometeoroloji hadisələrin intensivliyi və əhatə dairəsi artıb. İqlimlə əlaqəli fəlakətlər artdıqca, erkən xəbərdarlıq sisteminin əhəmiyyəti də artır. Müşahidə olunan intensiv yağıntılar, dolu və sel hadisələrinin statistikası iqlim dəyişmələrinin təzahürüdür. Təhlükəli hidrometeoroloji hadisələrlə bağlı verilən proqnoz və xəbərdarlıqların dəqiqliyinin artırılması məqsədilə hidrometeoroloji müşahidə şəbəkəsinin avtomatlaşdırılması və müasir avadanlıqlarla təchiz olunması vacibdir.

## Naxçıvanda Yeni il hazırlıqlarına start verilib



Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Naxçıvan şəhərində bayram hazırlıqlarına başlanılıb. "Şərq qapısı" xəbər verir ki, ənənəvi olaraq Heydər Əliyev prospektində Yeni ilin rəmzi olan şam ağacı quraşdırılır. Yeni il hazırlıqları çərçivəsində yolkanın işıqlandırılması, eləcə də bayram stendlərinin bəzədilməsi işləri aparılır. Bayram abhavası yaratmaq məqsədilə prospektdə müvafiq dekorativ tərtibat həyata keçirilir.





# Bura Naxçıvandır, bura Vətəndir



Turana qapı, türk dövlətlərini bir-birinə birləşdirən körpü, qədim Azərbaycanın mərdlik, igidlik qalası, Vətənin bir parçası, güllü-çiçəkli Naxçıvan. Qışı çox sərt, yayı isə çox isti. Baharı çiçək ətirlidir, yayı quraq olsa da, zəhmətkeş insanlarının alnından torpağa süzülən tər bu torpağı qurumağa qoymur. Payızından toy sədası ucalır, bağların, çöllərin bərəkəti insanı cuşa gətirir. Qış fəslində bəmbəyaz qara bürünən çölləri, dağları, kənd evlərinin bacasından çıxan tüstüsü ilə bir rəsm əsərini xatırladır Naxçıvan. Uca dağlar ətrafına sıralanıb, sanki onu qoruyan qalxan kimi. Xan Araz belinə sarılıb gümüş bir kəmər kimi... Bir ucu Kotam, bir ucu Sədərək kəndidir Naxçıvanın.

Bu qədim diyar Sədərək rayonunda başlayıb, Ordubadın Kotam kəndində bitir. Sehrlidir Naxçıvan torpağı, bir az da sirli. Mərddir naxçıvanlılar, həm də Vətən sevdalı.

Xəyalımda gəzirəm qarış-qarış bu diyarı, Sədərəkdən Ordubada kimi, Vətəndən qoparıldığımız torpağa kimi.

Yarımsəhra torpağı var Sədərəyin, amma insanları çox zəhmətkeşdir. Həm də qürurlu, döyüşkən. Vaxtilə az sinə gərməyib Sədərək düşmənə. Ən kiçik rayonudur Azərbaycanın, amma di gəl ki, 2 dövlətlə həmsərhəddir Sədərək. Ulu Öndərin adını daşıyan Heydərabad qəsəbəsi gözəlliyi və mərd duruşu ilə qürur verir bu qədim yurd yerinin sakinlərinə. Vaxt var idi bahar çiçəkləri şəhid qanına boyanmışdı bu torpağın. Onlarla oğul sinəsini düşmən gülləsinə sipər edib bu dağlarda aman verməyib yağıya.

Torpağı həm qoyurur, həm də əkib-becərir sədərəklilər. Düşmən güllərinin bir addımlığında dağ kimi dayanıb buranın sakinləri. Ümid körpüsü də bax elə bu yurdda salınıb, bizi qardaşımıza qovuşdurur. Keçmişi çətin olub Sədərəyin, bu günü, gələcəyi isə işıqlıdır.

Şərur ən böyük rayonudur bu qədim elin. Zəhmətkeş insanları çoxdur Şərurun, ilin hansı fəslində oraya getsən, iş başında görərsən şərurluları. Ucsuz-bucaqsız taxıl zəmiləri, gözəl bağ-bağçası var bu qədim yurd yerinin. Dağların qoynunda, xan Arazın, Arpaçayın ətəyində yaşayan insanların zəhməti ilə ucalır bu torpaq. Qədim Şərurun ən kiçik dağ kəndlərində belə sosial problemlər öz həllini tapıb. Hər cür şəraitə malik müasirtipli təhsil ocaqları, tibb məntəqələri, mədəniyyət obyektləri ucaldılıb. Bir vaxtlar yolu, izi olmayan dağ kəndlərinə geniş abad yollar salınıb, dünənə kimi qonşu kəndlərlə əlaqəsi olmayan sərhəd yaşayış məntəqələri indi dünyanın istənilən yeri ilə rabitə əlaqəsi yarada bilir. Yolların kənarında salınan yaşıllıqlar isə, sözün əsl mənasında, göz oxşayır. Bütün bunlar yurdumuza gözəllik verir, həm də insanlara rahatlıq gətirir.

Kəngərli özü gəncdir, amma adı qədim. Kəngərli süvariləri ilə tarixə ad salıb bu yurd. Tarixi yüz illərlə ölçülən Qarabağlar bu rayonun ən qədim yaşayış yeri, Şahtaxtı şahların taxtının qurulduğu kənddir. Kəngərli süvarilərinin, Şahtaxtinskilərin döyüşlərdə qılıncından çıxan səs hələ də eşidilir bu torpaqda. Kəngərli tarixin qoynundan boylanır sirli-sehrli sözlər deyir bizə.

Naxçıvan şəhəri qarşılayır sonra bizi. Möminə xatun anamızın şərəfinə ucalan əzəmətli türbə, damcıları mirvari kimi süzülən Qızlar bulağı, Nuhun türbəsi, Naxçıvanqala bu şəhərin tarixini danışır bizə sanki. Hüseyn Cavidin səsi gəlir bu şəhərin hər bucağından, Əcəminin əlinin izi görsənir. Araz üstü şəhərin gözəlliyi hər gələni valeh edir özünə. Təmizdir küçə, meydanları, gecələri də gündüzləri kimi işıqlı.

Şahbuz dağlar gözəlidir bu yurdun. Yaz gəldimi uca dağların qoynunda qoyunquzu mələşər. Dağlar həm də dərman bitkiləri ilə zəngindir. Mərcan gözlü Batabatın seyrinə gələnlər Məmməd Arazı xatırlayar buranın gözəlliyini görəndə. Bu yerin insanları torpaq sevdalı, zəhmətkeş, əməyi ilə çörəyini qazananlardır.

Qəhrəman Babəkin adını daşıyır Babək rayonu. Qədim Nehrəm, Cəhri qəsəbələri bu yurdun keşməkeşli tarixindən xəbər verir. Bir yanı Araz, bir yanı uca dağlardır Babəkin. Babək kimi oğullar o uca dağların başına qurulan səngərlərdə gecə-gündüz keşik çəkir Vətənə.

Culfa – ucsuz-bucaqsız çölləri, bir də yaralı ürəyi var bu diyarın. Yüz illər öncə yarıya bölünən ürəyi hələ də Arazın lilli, sakit sularına baxa-baxa qalıbdır. Bu el çox dərd çəkib, vaxtilə yarımcan edilən Azərbaycanın sinəsinə çəkilən dağ da bu torpağı yandırıb, erməni quldurlarının qəfil hücumlarının qarşısında da dayanıb Culfa. Əlincənin alınmazlıq tarixi bir qəhrəmanlıq möhürü olub Culfanın sinəsində. Bu gün o da gözəlləşib, yaraşıq gəlib hüsnünə.

Ulu keçmişi, gözəl qələm sahibləri, yüz illərdir, bu torpağın köksündən çıxan sərin kəhrizləri, tarixi yerləri ilə məşhurdur Ordubad. "Meyvə cənnəti" də deyirlər bu rayona. Ta qədimdən buraya yolu düşən səyyahlar belə adlandırıb Ordubadı. Hə bir də bura Zəngəzur dəhlizinin Naxçıvana açılan qapısıdır.

Yüz illər öncə Sədərəkdən başlayırdı Naxçıvan, ucu vardı, bucağı yox. Ana Vətənin qoynunda yaşayıb böyüyürdü Naxçıvan. Ta ki həmin tarixə kimi. Torpağımızın qəlbinə sancılan soyuq, qanlı xəncərin bizi hissələrə böldüyü günə kimi. "Gülüstan" və "Türkmənçay" adları sülh müqaviləsi idi, amma bizə sülh yox, ayrılıq gətirdi. Bağbağçamıza bərəkət gətirən xan Araz qəmli bir bayatı olub dilimizə düşəndə zənn etdik ki, bu sondur, bir daha namərd əli dəyməz torpağımıza. Yarım canımızla yaşamağımıza razı olsaq da, bitmədi imtahanımız. Naxçıvan da İrəvan, Göyçə kimi köçəri tayfalara peşkəş verilmək istənildə ayağa qalxdıq, malımızı, dövlətimizi, canımızı bir ovuc torpağa qurban verib əliyalın çıxdıq onların qarşısına. Mübarizə apardıq, anamız Azərbaycandan ayıra bilməsələr də, bizi, qədim Zəngəzuru alıb qopardılar köksümüzdən. Və o gün bu gündür, bizim gözlərimiz yollarda qaldı. Bizi anamız Azərbaycandan ayıran yollarda. Beş il öncə Vətənin başı üzərində doğulan Günəşin şəfəqləri ilə yollara dikilən gözlərimizə də nur gəldi. Bizi ana Vətənə birləşdirəcək o yol artıq uzaqda deyil, lap yaxındadır. Müzəffər Sərkərdənin bir addımında...

✍ **Ramiyə ƏKBƏROVA**

## Naxçıvanlı atlet Əmrah Nağıyev Prezident kubokunun qalibi olub






Dekabrın 21-i Qəbələ şəhərində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Qürurla irəli" şüarı altında Prezident kuboku uğrunda 12 km məsafəyə qaçış yarışı keçirilib. İştirakçılar Heydər Əliyev parkından (Həzi Aslanov küçəsi) başlayaraq Laza kəndi istiqamətinə, sonra isə geriyə – start-finiş nöqtəsinə doğru irəliləyiblər. Turnirdə ümumi, eləcə də 40+, 50+ və 60+ yaş kateqoriyaları üzrə kişi və qadın idmançılar mübarizə aparıblar.

Yarışa Naxçıvan Muxtar Respublikasından qatılan və kişilər arasında mübarizə aparan Əmrah Nağıyev məsafəni 00:43:56 vaxt göstəricisi ilə tamamlayaraq qalib olub. İdmançı kişilər arasında birinci yerə sahib çıxan Ə. Nağıyevə qızıl medal, diplom, pul mükafatı və Prezident kuboku təqdim olunub.

## Paralimpiyaçılarımızın uğuru

Sumqayıt Paralimpiya İdman Kompleksində növbəti Uşaq Paralimpiya Oyunları keçirilib. 19-20 dekabr tarixlərini əhatə edən yarışlarda 8 idman növü (paracüdo, parastolüstü tennis, parataekvando, paraüzgüçülük, parapauerliftinq, parabadminton, parakamandan oxatma, boccia) 130 uşaq paralimpiyaçı iştirak edib.

Uşaq Paralimpiya Oyunlarında Naxçıvan Muxtar Respublikasından 3 məşqçi və 4 paralimpiyaçı iştirak edib. Təmsilçilərimiz 2 qızıl və 2 gümüş medal qazanıblar.

Parapauerliftinq yarışlarında Mehdi Quliyev qızıl, Həsən Qasımov (hər ikisi Şərur) isə gümüş medal qazanıblar. Parastolüstü tennis yarışında Rəhman Baxşəlizadə (Naxçıvan) qızıl medal qazanmağa müvəffəq olub. Parastolüstü tennisdəki digər təmsilçimiz İsmayıl Həsənli (Culfa) gümüş medala sahib çıxıb.

Uşaq Paralimpiya Oyunlarının keçirilməsinin əsas məqsədi əlilliyi olan uşaqların idmana cəlb olunması və onların idman bacarıqlarının inkişaf etdirilməsi ilə




Azərbaycanı gələcəkdə beynəlxalq idman arenalarında layiqincə təmsil edəcək yeni paralimpiyaçı nəslinin yetişdirilməsidir.

## Qax Dövlət Kukla Teatrı "Xeyir və Şər" pantomim tamaşasını Naxçıvanda təqdim edib



Naxçıvanda ilk dəfə olaraq Qax Dövlət Kukla Teatrı tərəfindən Nizami Gəncəvinin "Xeyir və Şər" adlı pantomim tamaşa teatrsevərlərə təqdim olunub. Tamaşada yaxşılıq və pislik anlayışları simvolik obrazlar vasitəsilə səhnədə canlandırılıb. Sözsüz, sənət nümunəsi olan pantomim tamaşa hərəkət və mimikalar vasitəsilə izləyicilər tərəfindən maraqla qarşılanıb.

## Elan

"Naxçıvan Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə çatdırır ki, 24 dekabr 2025-ci ildə cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcək.

Gündəlikdə duran məsələlər:

1. Cari məsələlər
2. Cəmiyyətin fəaliyyəti
3. Cəmiyyətin ləğv olunması

### İtmişdir

Sədərək rayonu, Dəmirçi kənd sakini Mustafayeva Firuzə Ələsgər qızının adına verilmiş JN-698$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kəndində yaşamış Əbilov Xudeda Həmid oğlunun adına verilmiş JN-1$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri, Qoşadizə məhəlləsində Əsgərov Sərvər Əsgər oğlunun adına olan JN-200$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində Zeynalov Nazim Nağı oğlunun adına olan JN-316$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Çənlibel məhəlləsi, bina 24, mənzil 34 ünvanında Şirəliyev Məhəmməd Bayraməli oğlunun adına olan 9509 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Ərəfsə kəndində yaşamış Məmmədov Firqəm Dünyamalı oğlunun adına olan JN-132$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 304

Nömrəyə məsul: Ramiyə Əkbərova, Zəhra Vəliyeva, Turan Məmmədli
Dizayner: Həbibə Allahverdiyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.